# “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə
Konsolidə edilmiş Maliyyə hesabatları və
Müstəqil Auditor Hesabatı

## "AZƏRBAYCAN HAVA YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**MÜNDƏRİCAT**


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT | 1 |
| MÜSTƏQİL AUDİTOR HESABATI | 2 |
| 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI: | |
| Konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat | 5 |
| Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat | 6 |
| Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat | 7 |
| Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 8-9 |
| Konsolidə edilmiş maliyyə hesabatlarına qeydlər | 10-50 |

## "AZƏRBAYCAN HAVA YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq düzgün əks etdirən konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu siyasətlərinin müvafiq şəkildə seçilməsinə və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu siyasətlərinin müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Qrupun konsolidə edilmiş maliyyə vəziyyətinə və maliyyə nəticələrinə təsirini anlamağa kömək göstərmək üçün MHBS-nin xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə; və
- Qrupun fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Qrupda sağlam və effektiv daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılmasına;
- Qrupun əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə, konsolidə edilmiş maliyyə vəziyyətinin istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğunluğunu təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu standartlarına müvafiq olaraq yerli uçot qeydlərinin aparılmasına;
- Qrupun aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlərin görülməsinə; və
- Fırıldaqçılıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Qrupun 31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə konsolidə edilmiş maliyyə hesabatlarının buraxılması Müşahidə Şurası və Qrupun rəhbərliyi tərəfindən 12 avqust 2022-ci il tarixində təsdiqlənmişdir.

Müşahidə Şurası və rəhbərlik tərəfindən:

**Sabir İlyasov**
Birinci Vitse-Prezident

Bakı, Azərbaycan Respublikası
7 sentyabr 2022-ci il

**Esmira Tahirova**
Baş Mühasib

Bakı, Azərbaycan Respublikası
7 sentyabr 2022-ci il

Deloitte.

Deloitte & Touche MMAC
25E 8 Noyabr prospekti
Bakı, AZ1025, Azərbaycan

Tel.: +994 (12) 404 12 10
Faks: +994 (12) 404 12 11
deloitte.az

## MÜSTƏQİL AUDİTOR HESABATI

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasına və Səhmdarına:

### Rəy

Biz "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2021-ci il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir, konsolidə edilmiş kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin icmalı daxil olmaqla qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2021-ci il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş maliyyə nəticələri və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

### Rəyin əsasları

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın *Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti* bölməsində təsvir olunur. Biz, Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının *Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə* ("MBESŞ Məcəlləsi") uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və etika ilə bağlı digər öhdəliklərimizi MBESŞ Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

### Fasiləsizliklə bağlı mühüm qeyri-müəyyənlik

Əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirə biləcəyi ehtimalı əsasında hazırlanmışdır. Konsolidə edilmiş maliyyə hesabatlarının 2 saylı qeydində açıqlandığı kimi, COVİD-19 pandemiyası Qrupun fəaliyyətinə mühüm təsir etmişdir, Qrupun mənfi dövriyyə kapitalı, əməliyyatlar üzrə təkrarlanan zərərləri və yığılmış zərəri vardır. Bu hadisələr və ya şəraitlər, 2 saylı qeyddə açıqlanan digər məsələlərlə yanaşı, Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirə bilməsi üçün mühüm qeyri-müəyyənliyin mövcud olduğunu göstərir. Həmçinin bu məsələlərlə bağlı rəhbərliyin planları konsolidə edilmiş maliyyə hesabatlarının 2 saylı qeydində müzakirə olunur. Konsolidə edilmiş maliyyə hesabatlarına bu qeyri-müəyyənlik nəticəsində yarana biləcək hər hansı düzəlişlər daxil deyildir. Bu məsələ ilə bağlı rəyimizə dəyişiklik edilməmişdir.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited ("DTTL"), onun üzv şirkətlərinin qlobal şəbəkəsi və əlaqəli qurumları da daxil olmaqla, sadalananlardan birinə və ya bir neçəsinə istinad edir. DTTL (həmçinin "Deloitte Global" adlanan) və onun üzv şirkətlərinin hər biri hüquqi olaraq fərdi və müstəqil qurumlardır. DTTL müştərilərə xidmət göstərmir. Daha ətraflı məlumat üçün www.deloitte.com/about müraciət edin.

© 2022 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.

**Konsolidə edilmiş maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin məsuliyyəti**

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Qrupu ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Qrupun fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyəti olan şəxslər Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək əhəmiyyətli təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-a uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün əhəmiyyətli təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürməklə, istifadəçilərin hazırkı konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi qoruyub saxlayırıq. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və uyğun audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış olanların aşkar olunmaması riskindən yüksəkdir, belə ki, fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət sisteminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu siyasətlərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.

- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə şübhə doğura biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxardırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti konsolidə edilmiş maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və şəraitlər Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.
- Açıqlamalar daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu və maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi və vaxtı və audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar daxil olmaqla mühüm audit tapıntıları barədə məlumat veririk.

Deloitte & Touche LLAC

DELOITTE & TOUCHE
MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ
AZERBAIJAN

7 sentyabr 2022-ci il

## "AZƏRBAYCAN HAVA YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ
### KONSOLİDƏ EDİLMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA HESABAT
***(Min Azərbaycan Manatı ilə)***

| | Qeydlər | 2021 | 2020 |
|---|---|---|---|
| *Davam edən əməliyyatlar* | | | |
| Daşımalar üzrə və sair gəlirlər | 5 | 491,750 | 335,236 |
| COVİD-19 ilə əlaqədar hökumətdən alınmış subsidiyalar | 4 | 98,909 | 232,082 |
| Əməliyyat xərcləri | 6 | (539,692) | (537,471) |
| Ticarət debitor borclarının və əlaqəli tərəflərdən alınacaq məbləğlər üzrə dəyərsizləşmə zərəri | | (36,941) | (2,678) |
| **Əməliyyat mənfəəti** | | **14,026** | **27,169** |
| Maliyyə xərcləri | 7 | (86,824) | (83,966) |
| Xarici valyuta mübadiləsindən yaranan gəlir / (zərər) | 8 | 4,865 | (9,399) |
| **Vergidən əvvəl zərər** | | **(67,933)** | **(66,196)** |
| Mənfəət vergisi gəliri / (xərci) | 9 | 6,274 | (10,219) |
| **Davamlı əməliyyatlarla bağlı il üzrə zərər** | | **(61,659)** | **(76,415)** |
| *Dayandırılmış əməliyyatlar* | | | |
| Dayandırılmış əməliyyatlarla bağlı il üzrə zərər | 17 | (5,888) | - |
| **İL ÜZRƏ ZƏRƏR VƏ CƏMİ MƏCMU ZƏRƏR** | | **(67,547)** | **(76,415)** |

Əlavə olunmuş qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## "AZƏRBAYCAN HAVA YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ
### KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
*(Min Azərbaycan Manatı ilə)*

| AKTİVLƏR | Qeydlər | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıq | 10 | 1,290,862 | 1,382,518 |
| İstifadə hüququ olan aktivlər | 11 | 345,618 | 372,468 |
| Qeyri-maddi aktivlər | | 4,215 | 4,086 |
| Verilmiş uzunmüddətli avanslar | 12 | 50,942 | 48,454 |
| Sair uzunmüddətli aktivlər | 13 | 27,847 | 34,137 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1,719,484** | **1,841,663** |
| **Qısamüddətli aktivlər** | | | |
| İstehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları | 14 | 31,280 | 19,919 |
| Ticarət və sair debitor borcları | 15 | 138,716 | 71,892 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 16 | 78,825 | 44,726 |
| **Cəmi qısamüddətli aktivlər** | | **248,821** | **136,537** |
| **Cəmi aktivlər** | | **1,968,305** | **1,978,200** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Səhmdar kapitalı | 17 | 823,975 | 823,975 |
| Əlavə ödənilmiş kapital | 17 | 168,681 | 160,181 |
| Yığılmış zərər | | (1,882,634) | (1,763,916) |
| **Cəmi kapital** | | **(889,978)** | **(779,760)** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli kreditlər və borc vəsaitləri | 18 | 1,085,079 | 1,277,930 |
| İcarə öhdəlikləri, uzunmüddətli hissə | 19 | 232,853 | 285,154 |
| Sərnişinlər üçün bonus proqramı üzrə təxirə salınmış gəlir, uzunmüddətli hissə | 20 | 25,801 | 27,158 |
| Hökumət subsidiyaları | 4, 21 | 44,500 | - |
| Təxirə salınmış vergi öhdəlikləri | 22 | 36,618 | 46,197 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **1,424,851** | **1,636,439** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticarət və sair kreditor borcları | 23 | 136,542 | 108,517 |
| Qısamüddətli borc vəsaitləri və uzunmüddətli kreditlərin və borc vəsaitlərinin qısamüddətli hissəsi | 18 | 1,200,893 | 905,861 |
| İcarə öhdəlikləri, qısamüddətli hissə | 19 | 49,949 | 49,004 |
| Qazanılmamış gəlir | 20 | 37,101 | 25,103 |
| Sərnişinlər üçün bonus proqramı üzrə təxirə salınmış gəlir, qısamüddətli hissə | 20 | 3,268 | 1,529 |
| Sair qısamüddətli öhdəliklər | 24 | 5,679 | 31,507 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **1,433,432** | **1,121,521** |
| **Cəmi öhdəliklər** | | **2,858,283** | **2,757,960** |
| **Cəmi kapital və öhdəliklər** | | **1,968,305** | **1,978,200** |

Əlavə olunmuş qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

"AZƏRBAYCAN HAVA YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ**
**KONSOLİDƏ EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
***(Min Azərbaycan Manatı ilə)***

| | Qeydlər | Səhmdar kapitalı | Əlavə ödənilmiş kapital | Yığılmış zərər | Cəmi kapital (kəsir) |
|---|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il tarixinə qalıq** | | **823,975** | **148,413** | **(1,687,501)** | **(715,113)** |
| İl üzrə zərər və cəmi məcmu zərər | | - | - | (76,415) | (76,415) |
| Səhmdar yatırımları | 17 | - | 11,768 | - | 11,768 |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | | **823,975** | **160,181** | **(1,763,916)** | **(779,760)** |
| İl üzrə zərər və cəmi məcmu zərər | | - | - | (67,547) | (67,547) |
| Törəmə müəssisənin silinməsi | 17 | - | - | (51,171) | (51,171) |
| Səhmdar yatırımları | 17 | - | 8,500 | - | 8,500 |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | | **823,975** | **168,681** | **(1,882,634)** | **(889,978)** |

Əlavə olunmuş qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

# "AZƏRBAYCAN HAVA YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ
## KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
***(Min Azərbaycan Manatı ilə)***

| | Qeydlər | 2021 | 2020 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ:** | | | |
| Vergidən əvvəl zərər | | (73,821) | (66,196) |
| Düzəlişlər: | | | |
| Köhnəlmə və amortizasiya | | 127,412 | 139,678 |
| Əmlak və avadanlığın silinməsi | | 469 | - |
| Ticarət və sair debitor borcları və verilmiş avansların ehtiyatında dəyişiklik | | 35,091 | 2,592 |
| Əmlak və avadanlığın satışından yaranan gəlir | | (157) | - |
| İstifadə hüququ olan aktivlərin satışından yaranan zərər | | - | 722 |
| İstehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatlarının köhnəlməsi ehtiyatında dəyişiklik | | 6,236 | (151) |
| Əvəzləşdirilən ƏDV ehtiyatında dəyişiklik | 6 | (3,525) | (476) |
| Əmlak və avadanlığın və istifadə hüququ olan aktivlərin dəyərsizləşməsi | 6, 10, 11 | 4,594 | 15,794 |
| Kapital qoyuluşlarının dəyərsizləşmə ehtiyatında dəyişiklik | 6 | (4,392) | 4,797 |
| Xarici valyuta mübadiləsi üzrə (gəlir) / zərər | | (4,865) | 9,399 |
| Maliyyə xərcləri | 7 | 86,824 | 83,966 |
| Sair ehtiyatlarda dəyişiklik | | - | (925) |
| *Dövriyyə kapitalında hərəkətlərdən əvvəl əməliyyat fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri* | | *173,866* | *189,200* |
| Ticarət və sair debitor borclarında dəyişiklik | | (107,021) | 1,627 |
| İstehlak olunan ehtiyat hissələrində və mal-material ehtiyatlarında dəyişiklik | | (12,945) | (373) |
| Ticarət və sair kreditor borclarında dəyişiklik | | 56,043 | (70,625) |
| Sərnişinlər üçün bonus proqramı üzrə gələcək dövrlərin gəlirində dəyişiklik | 20 | 382 | 562 |
| Qazanılmamış gəlirdə dəyişiklik | 20 | 11,998 | (21,781) |
| Sair qısamüddətli öhdəliklərdə dəyişiklik | | (23,963) | (16,237) |
| **Əməliyyatlardan əldə olunan pul vəsaitləri** | | **98,360** | **82,373** |
| Ödənilmiş faiz | | (17,798) | (16,563) |
| **Əməliyyat fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri** | | **80,562** | **65,810** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ:** | | | |
| Əmlak və avadanlığın alınması* | | (38,678) | (39,428) |
| Əmlak və avadanlıq üçün ödənilmiş avanslar* | | (4,984) | (21,028) |
| Dövr ərzində istifadə hüququ olan aktivlər üzrə əlavələr üçün ödənilmiş pul vəsaitləri | | (1,343) | (71) |
| Əmlak və avadanlığın satışından daxilolmalar | | - | 310 |
| Qeyri-maddi aktivlərin alınması | | (2,954) | (1,818) |
| Törəmə müəssisənin alınması | | 14 | - |
| Törəmə müəssisənin silinməsi | | (1,431) | - |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(49,376)** | **(62,035)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİ:** | | | |
| Səhmdar yatırımları | 17 | 8,500 | 10,248 |
| Kreditlər və borc vəsaitləri üzrə daxilolmalar | 18 | 34,574 | 24,406 |
| Kreditlər və borc vəsaitləri üzrə əsas borc ödənişləri | 18 | (16,724) | (3,585) |
| İcarə öhdəlikləri üzrə əsas borc ödənişləri | 18 | (22,590) | (24,084) |
| **Maliyyələşdirmə fəaliyyətləri üzrə (istifadə olunan) / əldə olunan xalis pul vəsaitləri** | | **3,760** | **6,985** |
| **PUL VƏSAİTLƏRİNDƏ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM** | | **34,946** | **10,760** |
| Xarici valyuta məzənnəsindəki dəyişikliklərin xarici valyutada saxlanan pul vəsaitlərinə və bank qalıqlarına təsiri | | (847) | (993) |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin əvvəlinə** | | **44,726** | **34,959** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, ilin sonuna** | | **78,825** | **44,726** |

Əlavə olunmuş qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

***Təqdimatın 31 dekabr 2021-ci il tarixində başa çatan il ilə daha da uyğunlaşdırılması məqsədilə, 31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə əmlak və avadanlığın alışı və onlara görə ödənilmiş avanslara üzrə dəyişikliklər edilmişdir.**

**Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabata daxil edilməmiş nağdsız əməliyyatlar**

31 dekabr 2021 və 31 dekabr 2020-ci il tarixlərində başa çatan illər üzrə konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatda təqdim edilən məbləğlərə aşağıdakı nağdsız əməliyyatlar daxil deyil:

(a) 2020-ci ildə xalis balans dəyəri 26,784 AZN olan hava gəmisi və mühərrikin əmlak və avadanlıqdan istifadə hüququ olan aktivlər kateqoriyasına təsnif edilməsi (Qeyd 10-a bax);

(b) 2020-ci ildə xalis balans dəyəri 7,174 AZN dəyərində istifadə hüququ olan aktivlərin və 6,452 AZN məbləğində müvafiq icarə öhdəliyinin icarə müddətinin yenidən qiymətləndirilməsi (Qeyd 11-ə bax);

(c) 2020-ci ildə müvafiq olaraq 3,250 AZN və 32,695 AZN məbləğində hökumət zəmanətli kredit və icarə öhdəliklərinin Qrup adından Maliyyə Nazirliyi tərəfindən ödənilməsi və Maliyyə Nazirliyinə kredit kimi tanınması (Qeyd 18-ə bax);

(d) 2021-ci ildə müvafiq olaraq 3,308 AZN və 31,465 AZN məbləğində hökumət zəmanətli kredit və icarə öhdəliklərinin Qrup adından Maliyyə Nazirliyi tərəfindən ödənilməsi və Maliyyə Nazirliyinə kredit kimi tanınması (Qeyd 18-ə bax);

(e) 2020 və 2021-ci illərdə yerli bankdan alınmış kreditin müvafiq olaraq 10,010 AZN və 6,311 AZN dəyərində əsas məbləğinin Qrup adından bilavasitə hökumət tərəfindən Bakı-Naxçıvan-Bakı reysləri üçün subsidiya formasında qismən ödənilməsi (Qeyd 18-ə bax);

(f) 2021-ci ildə Füzuli Beynəlxalq Hava Limanına nəzarətin Qrupa ötürülməsi və bu törəmə müəssisənin nağdsız ötürülməsi səbəbindən 44,500 AZN hökumət subsidiyası və 14 AZN məbləğində pul vəsaitləri və onların ekvivalentləri kimi tanınması (Qeyd 4 və 21-ə bax);

(g) 2021-ci ildə Naxçıvan Beynəlxalq Hava Limanına nəzarətin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ötürülməsi və 51,171 AZN məbləğində xalis aktivlərin silinməsi. Bundan əlavə, törəmə müəssisənin nağdsız şəkildə silinməsi səbəbindən pul vəsaitləri və onların ekvivalentlərində 1,431 AZN məbləğində azalma (Qeyd 17-yə bax).

Əlavə olunmuş qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## 1. ŞİRKƏTİN FƏALİYYƏTİ HAQQINDA

"Azərbaycan Hava Yolları" QSC ("Şirkət") dövlət konserni kimi 17 avqust 1992-ci ildə təsis edilmişdir. 2008-ci ilin aprel ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı əsasında Şirkət Qapalı Səhmdar Cəmiyyəti kimi yenidən təşkil edilmişdir. Cəmiyyətin yeganə mülkiyyətçisi hökumətdir. Şirkət Azərbaycan Respublikasının Milli aviadaşıyıcısı kimi müəyyən edilmişdir.

2021-ci ilin fevral ayında Şirkətin idarəetməsi Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncama əsasən Maliyyə Nazirliyindən Azərbaycan İnvestisiya Holdinqinin (yeganə mülkiyyətçisi hökumət olan) idarəetməsinə verilmişdir.

31 dekabr 2021-ci il tarixinə "Azərbaycan Hava Yolları" QSC-nin 2 törəmə müəssisəsi vardır: Füzuli Beynəlxalq Hava Limanı Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) və Milli Aviasiya Akademiyası (birlikdə "Qrup").

Azərbaycan Respublikasının Nazirlər Kabineti 23 iyun 2021-ci ildə Qrupun strukturunun bir hissəsi kimi Naxçıvan Beynəlxalq Hava Limanının ayrılması və 1 iyul 2021-ci il tarixindən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin tabeliyinə verilməsi haqqında sərəncam qəbul etmişdir. Ötürülmə tarixinə (30 iyun 2021) törəmə müəssisənin cəmi aktivlərinin balans dəyəri 96,738 AZN olmuşdur. Əməliyyat ümumi nəzarətdə olan tərəflər arasında aparıldığından bu ötürülmə ilkin dəyər əsasında uçota alınmışdır.

13 dekabr 2021-ci il tarixində, Füzuli Hava Limanı MMC üzrə nəzarət 100%-lik törəmə müəssisə olaraq Qrupa ötürülmüşdür (Qeyd 4-ə bax).

| Təşkilatın adı | Hüquqi ünvan | Əsas fəaliyyət | 2021 | 2020 |
|---|---|---|---|---|
| Naxçıvan Beynəlxalq Hava Limanı | E002, Naxçıvan AZ6725, Azərbaycan | Hava limanı | - | 100% |
| Milli Aviasiya Akademiyası | Xəzər, Mərdəkan, 30 AZ1045, Bakı, Azərbaycan | Təhsil mərkəzi | 100% | 100% |
| Füzuli Beynəlxalq Hava Limanı | Xəzər, Mərdəkan, 21 AZ1044, Bakı, Azərbaycan | Hava limanı | 100% | - |

Şirkətin əsas hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq prospekti 11, AZ1000.

Qrupun əsas fəaliyyət istiqamətlərinə daxildir:

- Kommersiya əsaslı hava ilə daşımalar olan sərnişin və yük daşımaları;
- Aeronaviqasiyası xidmətləri – Azərbaycan Respublikası üzərindən uçuşların təmin edilməsi və marşrut üzrə aeronaviqasiya, habelə ölkə ərazisində meteoroloji xidmətlərin göstərilməsi;
- Hava gəmilərinə yanacaq doldurma xidmətləri – Azərbaycan Respublikasında uçuş həyata keçirən yerli və xarici sərnişin və yük aviaşirkətlərinə yanacaq doldurma xidmətlərinin göstərilməsi;
- Azərbaycan Respublikasının hava limanlarında terminalların və infrastrukturun istismarı, habelə aviasiya təhlükəsizliyi xidmətlərinin göstərilməsi; və
- Digər aidiyyəti xidmətlər.

Azərbaycan Respublikasının qanunvericiliyində Qrup təbii monopoliya və hava limanı əməliyyatlarını, qalxma-enmə zolaqlarını və qurğularını təmin edən, həmçinin sərnişin aviasiya xidmətlərini göstərən yeganə təşkilat kimi nəzərdə tutulur. Qrupun başlıca məqsədi Azərbaycanda mülki aviasiyanın inkişaf etdirilməsi və təkmilləşdirilməsidir.

Konsolidə edilmiş maliyyə hesabatlarının buraxılması Müşahidə Şurası və Qrupun rəhbərliyi tərəfindən 12 avqust 2022-ci il tarixində təsdiqlənmişdir.

## 2. FASİLƏSİZLİK PRİNSİPİ

Hazırkı konsolidə edilmiş maliyyə hesabatları Qrupun yaxın gələcəkdə öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi ehtimalı ilə hazırlanmışdır ki, bu da adi fəaliyyət zamanı aktivlərin realizə edilməsini və öhdəliklərin yerinə yetirilməsini nəzərdə tutur. Bu mühakiməni yürüdən zaman rəhbərlik Qrupun maliyyə vəziyyətini, hazırkı niyyətlərini, əməliyyatlarının gəlirliliyini və maliyyə resurslarından istifadə etmək imkanlarını nəzərdən keçirmişdir.

2021-ci ildə Qrupun 67,547 AZN (2020: 76,415 AZN) məbləğində məcmu zərəri olmuşdur. 31 dekabr 2021-ci il tarixinə Qrupun qısamüddətli öhdəlikləri onun qısamüddətli aktivlərindən 1,184,611 AZN artıq (31 dekabr 2020-ci il: 984,984 AZN), mənfi kapitalı isə 889,978 AZN (31 dekabr 2020-ci il: 779,760 AZN) olmuşdur. Bu nəticələrə 2015 və 2016-cı illərdə baş vermiş Azərbaycan manatının devalvasiyası, hökumətin qərarı ilə əvvəllər Maliyyə Nazirliyinə ötürülmüş 273,226 AZN məbləğində kreditin 2017-ci ildə yenidən bərpa edilməsi və təkrarlanan zərərlər öz mənfi təsirini göstərmişdir. Azərbaycan manatının devalvasiyası Qrupun maliyyə institutlarına olan xarici valyutada ifadə olunmuş icarə üzrə öhdəliklərinin, kreditlərinin və borclarının manat qarşılığını əhəmiyyətli həcmdə artırmışdır. Belə kreditlərin əsas hissəsi beynəlxalq banklardan alınmış dövlət zəmanətli kreditlər, yerli banklardan alınmış kreditlər və hökumətdən alınmış kreditlərdir.

Bundan əlavə, 2020-ci ilin əvvəlindən başlayaraq yeni koronavirus (COVİD-19) infeksiyası bütün dünya üzrə sürətlə yayılmağa başlamış və 2020-ci ilin mart ayında Dünya Səhiyyə Təşkilatı tərəfindən pandemiyanın elan olunması ilə nəticələnmişdir. COVİD-19-un yayılmasının qarşısını almaq üçün bir çox ölkələr tərəfindən həyata keçirilən tədbirlər bir çox şirkətlərin fəaliyyətində mühüm fasilələrə səbəb olmuş və hava nəqliyyatı sektoruna mühüm təsir göstərmişdir.

Rəhbərlik hesab edir ki, bu hadisələr və hallar Qrupun gələcəkdə öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirə bilməsinə mühüm şübhə doğurmaqla, onun normal fəaliyyət zamanı öz aktivlərini realizə edə və ya öhdəliklərini yerinə yetirə bilməsinə dair mühüm qeyri-müəyyənliyin olduğunu göstərir.

Rəhbərlik Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətini aşağıda qeyd olunmuş hallar əsasında qiymətləndirmişdir:

- 2020-ci ildə Qrupun əməliyyatlarına COVİD-19 pandemiyası kəskin təsir göstərmişdir. 2020-ci ilin ilk 2 ayı ərzində Qrupun sərnişin daşımaları üzrə gəliri ötən ilin eyni dövrü ilə müqayisədə 21% artmışdır. Lakin 2020-ci ilin mart ayından etibarən Qrup, COVİD-19 pandemiyası ilə əlaqədar ölkədaxili və beynəlxalq sərnişin daşımalarında mühüm azalma müşahidə etmişdir. Tətbiq olunan məhdudiyyətlər səbəbindən Qrup əməliyyatlarını əhəmiyyətli şəkildə azaltmalı olmuş və nəticədə bu, onun bütün gəlir axınlarına təsir edərək 2019-cu il ilə müqayisədə gəlirlərinin təxminən 67% azalmasına səbəb olmuşdur.

  Pandemiyaya cavab olaraq, Qrupun rəhbərliyi likvidliyin və Qrupun əməliyyatlarının davamlı olması üçün mühüm əhəmiyyət kəsb edən cari öhdəliklərin qarşılanmasının təmin edilməsi üçün xüsusi uçuşlara fokusun artırılması, xərclərin azaldılması, kreditlərin uzadılması məqsədilə kreditorlarla danışıqların aparılması, likvidliyin artırılması üçün başqa imkanların müəyyən edilməsi, təyyarə alışlarının təxirə salınması (2024-2025-ci illərədək) və bir sıra daxili layihələrin təxirə salınması kimi bir sıra cavab tədbirləri həyata keçirmişdir. Qrupun satınalma xərclərinə nəzarət daha da sərtləşdirilmiş və digər kapital xərcləri təxirə salınmaqla yalnız mühüm texniki xidmət məsrəfləri saxlanılmışdır. Qrupun köhnə debitor borclarından heç biri silinməmiş və Qrup naviqasiya və ölkə ərazisindən uçuşlarla əlaqədar debitor borclarının, xüsusilə, xarici tərəfdaşlardan toplanması istiqamətində səylərini artırmışdır.

2021-ci ilin fevral ayından etibarən karantin məhdudiyyətləri yüngülləşdirilmiş və Qrup uçuşlarını qismən bərpa edəcəyini elan etmişdir. 2021-ci il ərzində Qrup COVİD-19 pandemiyasının mənfi təsirinə məruz qalmağa davam etsə də, əməliyyatlarını bərpa etməyə başlamış və 2020-ci il ilə müqayisədə gəlir göstəriciləri 48% artmışdır. Qrup həmçinin COVİD-dən əvvəlki 2019-cu il üzrə gəlirlərinin təxminən 49%-ni əldə edə bilmişdir.

- 2017-ci ildə daha öncədən Maliyyə Nazirliyinə köçürülmüş 273,226 AZN məbləğində borc, hökumətin qərarına əsasən Qrupun öhdəliyi olaraq bərpa edilmiş, bu da öhdəliklərin artması və kapitalın azalması ilə nəticələnmişdir. Kredit 2026-cı ilədək ödənilməlidir, lakin hazırda rəhbərlik bərpa olunmuş bu öhdəliyin ödəmə şərtləri ilə bağlı hökumətlə danışıqlar aparır.
- 31 dekabr 2021-ci il tarixinə cari öhdəliklərin 1,083,609 AZN (31 dekabr 2020-ci il: 832,317 AZN) məbləğində olan böyük hissəsi Qrupun yeganə səhmdarı olan hökumətə məxsus müəssisələrədir. Rəhbərlik hesab edir ki, təcili pul çatışmazlığı yarandığı təqdirdə (Qrup milli sərnişin daşımaları şirkəti olduğundan və hökumət üçün strateji əhəmiyyət kəsb etdiyindən), Qrup əsas borc və faiz ödənişlərini təxirə salmaq üçün mövcud öhdəliklərin şərtlərini yenidən razılaşdırmaq və ya yaranan istənilən likvidlik kəsrini aradan qaldırmaq üçün əlavə kreditlər almaq imkanlarına malikdir.
- 2021-ci ildə Qrup fəaliyyətini davam etdirmək, əmək haqlarını ödəmək və hökumət zəmanəti ilə əldə edilmiş kredit müqavilələri üzrə ödənişlər etmək məqsədilə hökumətdən dəstək kimi (98,909 AZN subsidiya gəliri, 8,500 AZN əlavə ödənilmiş kapital və 34,701 AZN kredit kimi tanınmışdır) 142,110 AZN məbləğində vəsait almışdır (2020: təxminən 279,000 AZN, 232,082 AZN subsidiya gəliri, 6,500 AZN əlavə ödənilmiş kapital, 35,945 AZN kredit və 4,078 AZN tələb əsasında ödənilməli borc kimi tanınmışdır).
- Qrupun Müşahidə Şurası 2022-ci il üçün hökumətdən, əsasən planlaşdırılmış kapital xərcləri və digər investisiya layihələri üçün nəzərdə tutulan əlavə dəstəyi təsdiqləmişdir. Rəhbərlik hesab edir ki, bu vəsaitlər Qrupun öz əməliyyatlarından əldə edilən pul vəsaitləri ilə birlikdə 2022-ci ildə yarana biləcək hər hansı likvidlik kəsrini qarşılayacaq.
- 2022-ci ilin mart ayından başlayaraq, Ukraynada silahlı münaqişələrin gərginləşməsi də Qrupun əməliyyatlarına təsir göstərmişdir. Ukrayna ilə Rusiya arasında yaranan münaqişə nəticəsində Rusiya və Ukraynaya və əks istiqamətdə bütün uçuşlar dayandırılmışdır. Beləliklə, Qrupun əvvəlki ilin eyni dövrü ilə müqayisədə gəlir göstəriciləri azalmışdır. Münaqişə bu konsolidə edilmiş maliyyə hesabatlarının buraxıldığı tarixə qədər hələ də davam edir. Qrup 2022-ci il iyun ayından başlayaraq Rusiyaya uçuşları bərpa etmişdir və eyni zamanda mövcud təyyarələrin alternativ marşrutlara yönəldilməsini də nəzərdən keçirir.
- Rəhbərlik hesab edir ki, Qrup lazım olduqda dövriyyə kapitalı çatışmazlığını aradan qaldırmaq məqsədilə bəzi hava gəmilərinin və ehtiyat mühərriklərin satışını həyata keçirə bilər.

COVİD-19 pandemiyasının Qrupun uzunmüddətli əməliyyatlarına və maliyyə fəaliyyətinə davamlı təsirinin həcmi əsasən Qrupun nəzarətində olmayan və əvvəlcədən proqnozlaşdırılması mümkün olmayan bir sıra gələcək hadisələrdən asılıdır. Qrup yaxın gələcəkdə aviasiya xidmətlərinə tələbin tədricən bərpa olacağını ehtimal edir. 2021-ci ildən etibarən dünyada və Azərbaycanda vaksinasiya proqramlarının davam etməsi və Qrupun əməliyyatlarında artım müsbət hal kimi hesab edilir.

Rəhbərlik COVİD-19-la əlaqədar məhdudiyyətləri nəzərə alaraq Qrupun gələcək fəaliyyətlərini, xarici valyutada ifadə olunan gəlirlərini, xərclərin azaldılmasını, əhəmiyyətli olmayan kapital xərclərinin təxirə salınmasını və ehtiyac duyulduğu təqdirdə hökumət dəstəyinin mövcud olacağı gözləntilərini qiymətləndirmişdir. Bu qiymətləndirmələr əsasında rəhbərlik inanır ki, Qrup yaxın gələcəkdə vaxtı çatan bütün öhdəliklərini, o cümlədən xarici valyutada ifadə olunan öhdəliklərini yerinə yetirə biləcəkdir. Müvafiq olaraq rəhbərlik mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsini məqsədəuyğun hesab edir.

## 3. MÜHÜM MÜHASİBAT UÇOTU SİYASƏTLƏRİ

**Uyğunluq bəyannaməsi**

Hazırkı konsolidə edilmiş maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmış və hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının hesabat dövrünə buraxılmış və qüvvədə olan bütün MHBS-lərin tələblərini yerinə yetirir.

**Hazırlanma əsasları**

Hazırkı konsolidə edilmiş maliyyə hesabatları 1 yanvar 2016-cı il tarixinə ("Maliyyə Hesabatının Beynəlxalq Standartlarına ("MHBS") keçid tarixi") şərti dəyərlə göstərilən əmlak və avadanlıqlar istisna olmaqla, ilkin dəyər əsasında hazırlanmışdır. Həmin tarixə şərti dəyər müstəqil qiymətləndirici tərəfindən müəyyən olunmuş ədalətli dəyərə bərabər olmuşdur. İlkin dəyər adətən aktivlərin əldə edilməsi üçün təklif olunan ədalətli dəyər əsasında müəyyən olunur. Aktiv və ya öhdəliklərin ədalətli dəyərini hesablayarkən Qrup, qiymətləndirmə tarixində bazar iştirakçılarının aktiv və ya öhdəliyə qiymət qoyma zamanı onların xüsusiyyətlərini nəzərə aldığı təqdirdə həmin aktiv və ya öhdəliklərin xüsusiyyətlərini nəzərə alır. Bu konsolidə edilmiş maliyyə hesabatlarında qiymətləndirmə və ya açıqlama məqsədləri üçün ədalətli dəyər ədalətli dəyərlə müəyyən dərəcədə oxşar olan, lakin ədalətli dəyər ölçülmələri olmayan əsaslarla ölçülür (məsələn, Mühasibat Uçotu Beynəlxalq Standartı 2-dəki (MUBS) xalis realizə olunan dəyər və MUBS 36-dakı istifadə dəyəri kimi).

Bundan əlavə, maliyyə hesabatı məqsədilə ədalətli dəyər qiymətləndirmələri, belə qiymətləndirmələr üçün giriş məlumatlarının müşahidə edilə bilmə dərəcəsindən və bütövlükdə ədalətli dəyər qiymətləndirmələri üçün giriş məlumatlarının əhəmiyyətliliyindən asılı olaraq Səviyyə 1, 2, 3 kimi təsnifləndirilir. Bu səviyyələr aşağıdakılardır:

- Səviyyə 1 – Giriş məlumatları, ölçmə tarixində müəssisənin istifadə edə biləcəyi, fəal bazarda eyni aktiv və öhdəliklər üçün təyin edilən (düzəliş edilməmiş) qiymətlərdir;
- Səviyyə 2 – Giriş məlumatları, Səviyyə 1-ə daxil olan təyin edilmiş qiymətlər istisna olmaqla, birbaşa və ya dolayısı ilə aktiv və öhdəliklər üzrə müşahidə edilə bilən giriş məlumatlarıdır; və
- Səviyyə 3 – Giriş məlumatları aktiv və ya öhdəliklər üzrə müşahidə edilə bilinməyən giriş məlumatlardır.

**Konsolidasiyanın əsasları**

Konsolidə edilmiş maliyyə hesabatları Şirkətin və onun nəzarətində olan müəssisələrin (törəmə müəssisələr) hər il 31 dekabr tarixinə qədər hazırladıqları maliyyə hesabatlarından ibarətdir. Nəzarət aşağıdakı hallarda həyata keçirilir:

- Şirkət investisiya qoyulan müəssisə üzərində səlahiyyətə malik olduqda;
- Şirkət investisiya qoyulan müəssisə ilə iş birliyindən dəyişkən gəlirlər əldə etdikdə və ya belə gəlirlər üzrə hüquqa malik olduqda; və
- Şirkət gəlirlərə təsir etmək üçün öz səlahiyyətindən istifadə etmək qabiliyyətinə malik olduqda.

Şirkət fakt və mövcud vəziyyətlərin nəzarətin yuxarıda qeyd olunan üç elementindən birinə və ya bir neçəsinə dəyişiklər edildiyini göstərdiyi təqdirdə, investisiya qoyulan müəssisəyə nəzarət edib-etməməsini yenidən qiymətləndirir.

Törəmə müəssisənin konsolidə edilməsi Şirkətin bu törəmə müəssisə üzərində nəzarəti əldə etdiyi zaman başlayır və itirdiyi zaman dayandırılır. Konkret olaraq, il ərzində törəmə müəssisələrin əldə edilən və ya sərf olunan gəlir və xərcləri Şirkətin müvafiq nəzarəti əldə etdiyi tarixdən belə nəzarəti itirdiyi tarixə qədər mənfəət və ya zərər haqqında hesabata daxil olunur.

Törəmə müəssisələrin uçot prinsiplərini Qrupun uçot siyasətlərinə uyğunlaşdırmaq üçün lazım gəldikdə, onların maliyyə hesabatlarına düzəlişlər edilir.

Qrupun üzvləri arasında əməliyyatlarla əlaqədar bütün qrupdaxili aktiv və öhdəliklər, kapital, gəlir və xərclər və pul vəsaitlərinin hərəkəti konsolidə zamanı nəzərə alınmır.

Ötürülmə əməliyyatının ümumi nəzarətdə olan tərəflər arasında aparıldığı və maya dəyəri ilə uçota alındığı hallar istisna olmaqla, Qrup törəmə müəssisə üzərində nəzarəti itirdikdə mənfəət və ya zərər hesabatında tanınan silinmə üzrə gəlir və ya zərər (i) alınmış məbləğin ədalətli dəyərinin məcmusu ilə hər hansı iştirak payı və (ii) törəmə müəssisənin öhdəlikləri çıxılmaqla aktivlərin əvvəlki balans dəyəri ilə qeyri-nəzarət payları arasındakı fərq kimi hesablanır.

**Gəlirin tanınması**

Gəlir daxil olmuş və yaxud daxil olması nəzərdə tutulan ödənişin ədalətli dəyəri ilə hesablanır və adi fəaliyyət zamanı təqdim olunmuş mallar və yaxud göstərilmiş xidmətlər üzrə məbləğləri əks etdirir. Bu məbləğlərə satışla əlaqəli vergilər daxil deyil.

***Sərnişin daşımaları üzrə gəlir***

Bilet satışlarından daxil olan gəlir, hava daşımaları xidmətləri göstərilən zaman daşımalardan daxil olan gəlir kimi hesaba alınır. Satılmış və etibarlı olan, lakin hesabat tarixinə hələ istifadə edilməmiş biletlərin dəyəri konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda ayrıca sətirdə (qazanılmamış gəlir kimi) qısamüddətli öhdəliklər maddəsində əks olunur. Bu hesab Qrupun müvafiq hava daşımaları xidmətlərini göstərdiyi zaman və ya sərnişin biletə görə geri ödəmə tələb etdiyi zaman, yaxud da bu tələb etmə hüququnu itirdiyi zaman azaldılır.

Sərnişin daşımalarından gəlirlərə həmçinin, Qrupun müəyyən aviaşirkətlərlə bağlamış olduğu kod-şerinq müqavilələrindən daxil olan gəlirlər də daxildir. Bu müqavilələr əsasında Qrup və digər hava aviaşirkətləri bir-birinin reyslərinə biletlər satır ("kod-şerinq müqaviləsi"). Kod-şerinq müqavilələri üzrə digər aviaşirkətlərin reyslərinin bilet satışından daxil olan gəlir Qrupun tutduğu komissiya məbləğində uçota alınır və satılan biletdən istifadə edilmədiyi təqdirdə geri qaytarılma ehtimalı nəzərə alınmaqla tanınır. Kod-şerinq müqaviləsi əsasında Qrupun biletlərinin digər aviaşirkətlər tərəfindən satışından daxil olan gəlir hava daşımaları xidmətlərinin göstərildiyi an tam məbləğdə daşımalar üzrə gəlirlər hesabında Qrupun konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata daxil edilir.

**Biletin yenidən buraxılması üzrə gəlir** – Qrupun göstərdiyi hər bir xidmət haqqının ayrıca şərtləri var (xidmət haqqının əvəzi ödənilən və ya əvəzi ödənilməyən ola bilər). Bu o deməkdir ki, sərnişinlərin öz bronlarını dəyişdirdiyi, reyslərini ləğv etdiyi və ya əvəzləyici biletlər aldığı təqdirdə, bütün bunlar üçün xidmət haqqı tətbiq oluna bilər. Dəyişdirmə xidmətinə fərdi qaydada baxılmır, çünki müştəri reys götürmədən bu imtiyazdan faydalana bilmir – bron zamanı dəyişdirmə xidmətlərinin ayırd edilməsi mümkün deyil və xidmət üzrə öhdəliyinin bir hissəsi kimi seçilmiş reys üzrə sərnişinə yer təqdim edilir. Dəyişdirmə xidməti reysdən əvvəl göstərilsə də, sərnişin uçuş bileti almayana qədər onunla bağlı imtiyazlardan istifadə edilməsi mümkün deyil. Nəticədə, dəyişdirmə üçün xidmət haqqı səyahət tarixində bilet satışı ilə birlikdə gəlir kimi tanınır.

**Biletlərin istifadə edilməməsi** – Müəyyən bilet növləri, müştərilərin, həqiqətən uçuş etməməsi halında, ödənilən məbləğin geri qaytarılmasını tələb etməyə imkan verir. Müştərilərlə Müqavilələrdən əldə edilmiş gəlirlər haqqında MHBS 15-də müəyyən edilir ki, istifadə olunmayan bu məbləğlər üçün gəlirin tanınma vaxtı müəssisənin istifadə olunmayan bilet məbləğini tanımaq hüququ haqda gözləntisindən asılıdır. Müəssisənin istifadə olunmayan biletlər üçün gəlir əldə etmək hüququ yarandıqda, bu məbləğ müştərinin əməl etdiyi hüquq modelinə mütənasib şəkildə gəlir kimi

tanınır. Əks halda, müəssisə istifadə olunmayan biletlərlə bağlı gəliri müştərinin öz qalan hüquqlarını yerinə yetirmək ehtimalı olmadıqda tanımalıdır.

**Bonus proqramı** – Qrup sərnişinlər üçün "AZAL Miles" adlı loyallıq proqramını tətbiq edir. Proqramın şərtlərinə əsasən, qazanılmış bonus milləri sərnişinlərə ödənişsiz uçuşlar etmək, üst xidmət kateqoriyasından yararlanmaq və yaxud bonusları proqram tərəfdaşlarının xidmətlərində istifadə etmək imtiyazları qazandırır. MHBS 15-ə əsasən, yığılmış, lakin istifadə olunmamış bonus milləri əhəmiyyətli hüquq kimi təxirə salınır. 15 saylı MHBS standartı əməliyyat qiymətinin imzalanma zamanı müqavilədə vəd edilən ayrı məhsul və ya xidmət üçün müvafiq müstəqil satış qiymətləri əsasında hər bir müqavilə öhdəlikləri arasında bölüşdürülməsini tələb edir. Qrupun planlaşdırılmış reysləri üçün biletin müstəqil satış qiyməti sərnişinin bonus proqramının iştirakçısı olub-olmamasından asılı olmayaraq Qrup tərəfindən satış zamanı həmin istiqamət üzrə müəyyən olunmuş tarifdir. Bir fərdi bonus milinin müstəqil satış qiyməti gələcəkdə Bonus proqramının iştirakçısına təqdim olunacaq xidmətlərin ədalətli dəyərinin təqribidir. Gəlirin bonus milləri ilə bağlı olan və "AZAL Miles" proqramı əsasında Qrupun reyslərindən yığılmış hissəsi təxirə salınmış qısamüddətli və uzunmüddətli gəlir kimi, müvafiq olaraq Qrupun konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatında qısamüddətli və uzunmüddətli öhdəliklərdə əks olunur.

Gəlir, ancaq "AZAL Miles" iştirakçılarına xidmət göstərildikdən sonra və ya belə xidmətləri əldə etmək hüquqlarının müddəti bitdikdə tanınır.

**Biletləri satan agentlərə ödənilməli komissiyaların uçotu** – Qrup, 15 saylı MHBS-yə uyğun olaraq, müştəri ilə müqavilə əldə etmək üçün çəkilən xərcləri kapitallaşdırmamağa imkan verən praktiki metoddan istifadə edir və biletlərin satışı üzrə agentlərə ödənilməli komissiyaları konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda biletlərin satıldığı dövrdə əməliyyat xərclərində tanıyır, çünki Qrupun hazırkı tariflərinə əsasən sərnişin daşıması öhdəliklərinin yerinə yetirilməsi dövrü bir ili keçmir.

***Yük daşımaları***

Yük daşımaları üzrə gəlir daşıma xidmətləri göstərildiyi anda tanınır.

***Digər xidmətlər***

Aeronaviqasiya, yanacaqdoldurma, hava limanı, aviasiya təhlükəsizliyi və digər xidmətlər göstərildiyi anda, endirimlər və vergilər çıxılmaqla tanınır.

**İcarələr**

***Qrup İcarəçi kimi***

Qrup müqavilənin başlandığı tarixdə müqavilənin predmetinin icarə ilə bağlı olub-olmadığını və ya müqavilədə icarəyə dair şərtin nəzərdə tutulub-tutulmadığını qiymətləndirir. Qrup qısamüddətli icarələr (icarə müddəti 12 ay və ya daha az olan icarə kimi müəyyən edilir) və aşağı dəyərli aktivlərin (planşetlər və fərdi kompüterlər, kiçik ofis mebeli və telefonlar) icarəsi istisna olmaqla, icarəçi olduğu bütün icarə müqavilələri ilə əlaqədar istifadə hüququ olan aktivi və müvafiq icarə öhdəliyini tanıyır. Əgər icarə olunan aktivdən əldə olunan iqtisadi mənfəətin tanınması üçün belə mənfəətin daxil olduğu müddəti daha uyğun əks etdirən digər bir metod yoxdursa, Qrup bu icarələr üçün icarə ödənişlərini icarə müddəti ərzində düz xətt metodu əsasında əməliyyat xərci kimi tanıyır.

İcarə öhdəliyi ilkin olaraq icarənin başlanğıc tarixində ödənilməyən icarə ödənişlərinin cari dəyəri ilə ölçülür və icarədə nəzərdə tutulan dərəcədən istifadə edilərək diskontlaşdırılır. Bu dərəcə asanlıqla müəyyən edilə bilmirsə, Qrup artan borc dərəcəsindən istifadə edir.

İcarə öhdəliyi konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda ayrıca sətirdə təqdim olunur. İcarə öhdəliyi daha sonra icarə öhdəliyindəki faizi əks etdirmək üçün balans dəyərini artırmaqla (effektiv faiz metodundan istifadə etməklə) və ödənilmiş icarə ödənişlərini əks etdirmək üçün balans dəyərini azaltmaqla ölçülür.

İstifadə hüququ olan aktivlər bu aktivlərlə bağlı alınan güzəştlər və hər hansı ilkin birbaşa xərclər çıxılmaqla, müvafiq icarə öhdəliyinin ilkin ölçülməsi, icarənin başlama günü və ya bu gündən əvvəl edilmiş icarə ödənişlərindən ibarətdir. Bu aktivlər daha sonra yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyər ilə ölçülür.

İstifadə hüququ olan aktivlər konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda ayrıca sətirdə təqdim olunur.

Qrup istifadə hüququ olan aktivlərin dəyərsizləşib-dəyərsizləşmədiyini müəyyən etmək üçün 36 saylı MUBS standartını tətbiq edir və "Əmlak və avadanlıq" siyasətində göstərildiyi kimi müəyyən edilmiş istənilən dəyərsizləşmə zərərini uçota alır.

İndeksdən və ya dərəcədən asılı olmayan dəyişən icarə haqları icarə öhdəliyi və istifadə hüququ olan aktivin ölçülməsinə daxil edilmir. Müvafiq ödənişlər bu ödənişlərə səbəb olan hadisə və ya vəziyyətin baş verdiyi dövrdə xərc kimi tanınır və konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda "Əməliyyat xərcləri" sətrinə daxil edilir.

Praktiki vasitə olaraq, 16 saylı MHBS standartı icarəçinin icarəyə götürülməyən komponentləri ayırmamasına və bunun əvəzinə hər hansı icarə və icarəyə götürülməyən müvafiq komponentləri tək bir razılaşma kimi uçota almasına icazə verir. Qrup bu praktiki vasitədən istifadə etmişdir.

**Əməliyyat və təqdimat valyutası**

Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatı ("AZN") Qrupun daxilində olan bütün müəssisələrin əməliyyat valyutasıdır, çünki o, Qrupun əməliyyatlarının iqtisadi mahiyyətini əks etdirir. Həmçinin, Azərbaycan manatı bu konsolidə edilmiş maliyyə hesabatlarının təqdim olunduğu valyutadır. Başqa qeydlər olmazsa, bütün maliyyə məlumatları yaxın minlik ədədinə qədər yuvarlaqlaşdırılmışdır.

**Xarici valyutalar**

Qrupun müəssisələrinin maliyyə hesabatlarının hazırlanmasında müəssisənin əməliyyat valyutası (xarici valyutalar) xaricində olan valyutalarda aparılan əməliyyatlar əməliyyat tarixlərində qüvvədə olan məzənnələr ilə tanınır. Hər hesabat tarixində xarici valyutada ifadə olunmuş monetar aktivlər və öhdəliklər həmin tarixdə qüvvədə olan məzənnələr ilə təkrar çevrilir. Xarici valyutada ifadə olunmuş ədalətli dəyərlə uçota alınan qeyri-monetar maddələr ədalətli dəyərin müəyyən edildiyi tarixdə qüvvədə olan məzənnə əsasında təkrar çevrilir. Xarici valyutada ilkin dəyər ilə ölçülən qeyri-monetar maddələr təkrar çevrilir.

Qrupun hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması məqsədilə ilin sonuna istifadə etdiyi məzənnələr aşağıda göstərilmişdir:

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| AZN / ABŞD | 1.7000 | 1.7000 |
| AZN / AVRO | 1.9265 | 2.0890 |

**Hökumət subsidiyaları**

Hökumət subsidiyaları Qrupun onlara aid olan şərtlərə əməl edəcəyinə və subsidiyaların alınacağına əsaslı əminlik əldə olunana qədər tanınmır.

Hökumət subsidiyaları Qrupun belə subsidiyaların kompensasiya üçün nəzərdə tutulduğu əlaqədar xərcləri xərc kimi tanıdığı dövrlər üzrə sistemli olaraq mənfəət və ya zərər hesabatında tanınır. Xüsusilə, əsas şərti Qrup tərəfindən uzunmüddətli aktivlərin (əmlak və avadanlıq daxil olmaqla) alınması, tikilməsi və ya digər şəkildə əldə edilməsindən ibarət hökumət subsidiyaları konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda "Hökumət subsidiyası" kimi tanınır və əlaqədar aktivlərin faydalı istifadə müddətləri ərzində sistematik və əsaslı qaydada mənfəət və ya zərər hesablarına köçürülür.

Artıq çəkilmiş xərclər və ya zərərlər üçün təzminat kimi və ya gələcək əlaqəli xərclər olmadan Qrupa dərhal maliyyə dəstəyi göstərmək məqsədi ilə alına bilən hökumət subsidiyaları debitor borclara çevrildiyi dövrdə mənfəət və ya zərər hesablarında tanınır.

Bazar faiz dərəcəsindən aşağı faizlə olan hökumət krediti üzrə mənfəət əldə edilmiş gəlirlərlə mövcud bazar faiz dərəcələrinə əsaslanan kreditin ədalətli dəyəri arasındakı fərq kimi ölçülmüş hökumət subsidiyaları kimi uçota alınır.

**Vergi**

Mənfəət vergisi xərcləri cari ödənilməli və təxirə salınmış vergi öhdəliklərinin cəmini əks etdirir.

***Cari vergi***

Ödənilməli cari vergi, il üzrə vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Vergiyə cəlb olunan mənfəət, konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əksini tapmış mənfəətdən fərqlənir, çünki ona digər illərdə vergiyə cəlb olunan yaxud gəlirdən tutulan, habelə heç vaxt vergiyə cəlb olunmayan yaxud gəlirdən tutulmayan gəlir və xərc müddəaları daxil deyildir.

Qrupun cari vergi ilə bağlı öhdəliyi hesabat dövrünün sonunda balans tarixinədək qanuni qüvvəyə minmiş və ya əsas etibarilə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Vergi yanaşmasının olmadığı məsələlər üçün ehtiyat tanınır, lakin gələcəkdə vergi orqanına vəsaitlərin ödənilməsi ehtimal olunur. Ehtiyatların həcmi ödənilməsi gözlənilən və mümkün qədər düzgün hesablanmış məbləğ əsasında ölçülür. Qiymətləndirmə bu cür fəaliyyətlərlə bağlı keçmiş təcrübələrə üz tutan Qrupun daxili vergi mütəxəssislərinin qərarına və bəzi hallarda müstəqil vergi məsləhətlərinə əsasən aparılır.

***Təxirə salınmış vergi***

Təxirə salınmış vergi konsolidə edilmiş maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə vergiyə cəlb olunan mənfəətin hesablanmasında istifadə olunan müvafiq vergi bazası arasındakı fərqlər əsasında ödənilməsi və ya bərpa edilməsi gözlənilən vergidir. Təxirə salınmış vergi öhdəlikləri, ümumiyyətlə, vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün tanınır və təxirə salınmış vergi aktivləri vergiyə cəlb olunan mənfəətin əldə ediləbiləcəyi və onlara qarşı müvəqqəti çıxılan fərqlərin istifadə edilməsi ehtimal olunan həcmdə tanınır. Müvəqqəti fərqlər qudvilin ilkin tanınmasından və ya vergiyə cəlb olunan mənfəətə və ya uçotda əks olunmuş mənfəətə təsir göstərməyən əməliyyatlar zamanı sair aktiv və öhdəliklərin ilkin tanınmasından (müəssisə birləşmələri istisna edilməklə) yaranarsa, belə aktivlər və öhdəliklər uçotda tanınmır.

Təxirə salınmış vergi öhdəlikləri, Qrupun müvəqqəti fərqin geri qaytarılmasına nəzarət edə biləcəyi hallar istisna olmaqla, törəmə və asılı müəssisələrə yatırılan investisiyalardan və birgə müəssisələrdəki paylardan qaynaqlanan vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün tanınır və müvəqqəti fərqin yaxın gələcəkdə geri qaytarılması ehtimal olunur. Belə investisiyalar və paylarla əlaqəli gəlirdən çıxılan müvəqqəti fərqlərdən yaranan təxirə salınmış vergi aktivləri yalnız müvəqqəti fərqlərin faydalarından yararlanmaq üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin olacağı ehtimalı olduğu halda tanınır və yaxın gələcəkdə onların geri qaytarılması gözlənilir.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat tarixində təhlil edilir və aktivin hamısının və ya müəyyən hissəsinin bərpa olunmasına imkan vermək üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin yaranacağı ehtimalı olmayan həddə qədər azaldılır.

Təxirə salınmış vergi hesabat dövrünün sonunda qanuni qüvvəyə minmiş və ya tam qüvvəyə minmiş vergi qanunvericiliyinə və vergi dərəcələrinə əsaslanmaqla öhdəliyin yerinə yetirildiyi və ya aktivin satıldığı dövrdə tətbiq olunacağı gözlənilən vergi dərəcəsi ilə hesablanır. Təxirə salınmış vergi aktivləri və öhdəliklərinin ölçülməsi Qrupun hesabat dövrünün sonunda aktiv və öhdəliklərinin balans dəyərini bərpa etməsindən və ya ödəməsindən asılı olaraq yaranacaq vergi nəticələrini özündə əks etdirir.

Təxirə salınmış vergi aktivləri və vergi öhdəlikləri o zaman əvəzləşdirilir ki, cari vergi aktivlərini cari vergi öhdəliklərinə qarşı əvəzləşdirmək üçün qanuni hüquq mövcud olsun, onlar eyni vergi orqanı tərəfindən tətbiq olunan mənfəət vergisinə aid olsun və Qrup cari vergi aktivləri və öhdəlikləri üzrə xalis hesablaşmalar aparmaq niyyətindədir.

**İl üzrə cari vergi və təxirə salınmış vergi**

Cari vergi və təxirə salınmış vergi sair məcmu gəlir yaxud birbaşa olaraq kapitalda göstərilən maddələrlə bağlı olduğu və nəticə etibarilə, müvafiq olaraq sair məcmu gəlir və ya birbaşa kapital maddəsi kimi tanındığı hallar istisna edilməklə, mənfəət və ya zərər hesablarında tanınır. Cari vergi və ya təxirə salınmış vergi müəssisə birləşməsinin ilkin uçotundan yarandıqda, vergi təsiri müəssisə birləşməsi üzrə vergi təsirində əks olunur.

**Əmlak və avadanlıq**

Əmlak və avadanlıq yığılmış köhnəlmə çıxıldıqdan sonra ilkin qiymətdə (təxmin edilən qiymətdə) göstərilir. 1 yanvar 2016-cı il tarixindən sonra alınmış aktivlərin dəyəri satınalma ilə bağlı gözlənilməyən xərclər daxil olmaqla, alış qiymətindən ibarətdir. Dəyərin aktivlərin qalan faydalı istismar müddəti ərzində paylanması üçün (uyğun olduqda qiymətləndirilmiş ləğvetmə dəyəri çıxıldıqdan sonra) amortizasiya hesablanır.

Yalnız aktivlərlə bağlı gələcəkdə Qrupa iqtisadi mənfəətin daxil olması ehtimalı olduqda və ya belə aktivlərin dəyərinin etibarlı qiymətləndirilməsi mümkün olduqda sonradan çəkilən xərclər aktivlərin balans dəyərinə daxil edilir və yaxud müvafiq olduqda ayrıca aktiv kimi tanınır. Təmir və xidmət xərcləri həmin xərclərin çəkildiyi dövrdə konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata daxil edilir.

Torpaq sahəsi amortizasiya olunmur.

Faydalı istismar müddətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

| **Kateqoriya** | **Faydalı istismar müddəti** |
|---|---|
| Binalar və infrastruktur | 25-50 il |
| Hava gəmisi və mühərriklər | 25 il |
| Texnika və avadanlıq | 10-15 il |
| Sair aktivlər | 5-10 il |

Təxmin edilən faydalı istismar müddətləri, qalıq dəyərləri və köhnəlmə metodu hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və təxminlərdəki hər hansı dəyişikliklərin təsiri növbəti dövrlərdə uçota alınır.

Əmlak və avadanlıqlar silindikdə və ya onların davamlı istifadəsi artıq heç bir iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak və avadanlıqların satılaraq silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərər belə aktivlərin balans dəyəri ilə satışından daxil olmuş gəlir arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərərdə tanınır.

***Hava gəmisi və mühərriklər***

Hava gəmisinin və mühərriklərin satınalınma qiyməti xarici valyutada ifadə olunur. Bunlar əməliyyat tarixində mövcud olan məzənnə ilə tanınır. İstehsalçının təklif etdiyi endirimlər (əgər olarsa) müvafiq aktivin dəyərindən çıxılır.

Hava gəmiləri və mühərriklər düz xətt amortizasiya metodundan istifadə etməklə ləğvetmə dəyərinin olmaması ehtimalı ilə hesablanmış 25 il faydalı istismar dövrü üzrə amortizasiya olunur. Əməliyyat dövrü ərzində Qrup köhnəlmənin hesablanmasına və yaxud faydalı istismar dövrünə düzəliş edilib-edilməyəcəyini nəzərdən keçirir və lazım gələrsə, ləğvetmə dəyərinin tanınma zərurətinin olub-olmadığını müəyyən edir.

Ehtiyat hissələri və işçi xərcləri də daxil olmaqla əsaslı təmir xərcləri növbəti əsaslı təmirə qədər qalan icarə müddəti və yaxud aktivin faydalı istismar dövrü arasında ən qısa dövr üzrə (uçuş saatları və ya uçuş dövrələri əsasında) kapitallaşdırılır və amortizasiya olunur.

Kapital qoyuluşları ilkin dəyərlə uçotda əks olunur. Aktiv təyinatı üzrə istifadə üçün hazır olan zaman kapital qoyuluşlarından əmlak və avadanlıq maddəsinin müvafiq kateqoriyasına köçürülür və Qrupun siyasətlərinə əsasən amortizasiya edilir.

**Əmlak və avadanlıqların dəyərsizləşməsi**

Hər hesabat tarixində Qrup öz əmlak və avadanlıqlarının balans dəyərlərini, bu aktivlərdə dəyərsizləşmə zərərinə dair hər hansı göstəricinin olub-olmadığını müəyyənləşdirmək üçün, nəzərdən keçirir. Dəyərsizləşmənin baş verdiyinə dəlalət edən hər hansı hallar mövcud olarsa, dəyərsizləşmə zərərinin (əgər varsa) həcmini müəyyən etmək üçün aktivin bərpa dəyəri hesablanır. Aktivin digər aktivlərdən asılı olmayaraq gəlir gətirmədiyi halda, Qrup belə aktivin aid olduğu gəlir gətirən aktivlər qrupunun bərpa dəyərini müəyyən edir. Aktivin yerləşdirilməsinə dair ağlabatan və əsaslı səbəb müəyyən edildiyi hallarda, korporativ aktivlər də fərdi gəlir gətirən aktivlər qrupunda yerləşdirilə bilər, əks halda, ağlabatan və əsaslı səbəblər müəyyən edildiyi hallarda ən kiçik gəlir gətirən aktivlər qrupunda yer alır.

Bərpa dəyəri satış xərcləri çıxılmaqla ədalətli dəyər və istifadə dəyərləri arasında daha yüksək olan məbləğdir. İstismar dəyərini qiymətləndirərkən hesablanmış gələcək pul daxilolmaları vergiyə qədərki diskont dərəcədən istifadə etməklə onların cari dəyəri ilə diskontlaşdırılır. Belə diskont dərəcə pulun

zaman dəyəri ilə bağlı cari bazar qiymətləndirmələrini və gələcək pul axınları ilə bağlı təxminlərinə düzəliş edilməyən aktivlər üçün səciyyəvi riskləri özündə əks etdirir.

Aktivin (və ya gəlir gətirən aktivlərin) bərpa dəyərinin onun balans dəyərindən az olduğu hesablanarsa, belə aktivin (yaxud gəlir gətirən aktivlərin) balans dəyəri bərpa dəyərinə qədər azaldılır. Dəyərsizləşmə zərəri dərhal mənfəət və ya zərər hesablarında tanınır.

Dəyərsizləşmə zərəri sonradan geri qaytarılarsa aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) balans dəyəri bərpa dəyərinə qədər artırılır, bu şərtlə ki, artırılmış belə balans dəyəri aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) ehtimal olunan dəyərsizləşmə zərərinin tanınmadığı keçmiş illərdə müəyyən edilmiş balans dəyərindən artıq olmasın. Dəyərsizləşmə zərərinin geri qaytarılması mənfəət və ya zərər hesablarında dərhal o zaman tanınır ki, bu geri qaytarılma əvvəlki illərdə aktivlə bağlı uçotda tanınmış dəyərsizləşmə zərərini ləğv etsin.

**İstehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları**

İstehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları maya dəyəri və xalis satış dəyəri arasında daha az olanı ilə əks olunur. Yanacaq qiymətlərinin ölçülmüş orta dəyər əsasında hesablanması istisna olmaqla, belə mal-material ehtiyatları FİFO metodu əsasında xərcə silinir. Yanacaq istehlak olunan zaman hesabdan silinir. Xalis satış dəyəri bütün təxmin edilən tamamlanma xərcləri və marketinq, satış və paylanmada çəkiləcək xərclər çıxılmaqla təxmin edilən satış qiymətini əks etdirir.

**Maliyyə alətləri**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri Qrupun maliyyə aləti ilə bağlı müqavilə öhdəliklərinə tərəf olduqda Qrupun konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatında tanınır.
Maliyyə aktivləri və maliyyə öhdəlikləri ilk olaraq ədalətli dəyərlə ölçülür. Maliyyə aktivləri və maliyyə öhdəliklərinin alınması və ya buraxılmasına birbaşa aidiyyəti olan əməliyyat xərcləri (ədalətli dəyəri mənfəət və ya zərərdə tanınan maliyyə aktivləri və maliyyə öhdəlikləri istisna edilməklə) uçotda ilkin tanınma zamanı maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin müvafiq olaraq ədalətli dəyərinə əlavə edilir və ya bu dəyərdən çıxılır. Maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin mənfəət və ya zərər uçotunda tanınan ədalətli dəyərlə qeydə alınması ilə birbaşa bağlı olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərər uçotunda tanınır.

***Pul vəsaitləri və onların ekvivalentləri***

Pul vəsaitləri və onların ekvivalentləri kassadakı nağd vəsaitlərdən, cari hesablardan və ödəmə müddətləri üç ay və ya daha az olan bank depozitlərindən ibarətdir.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm qaydada alınması və ya satılması alqı-satqı tarixində tanınır və onların tanınması dayandırılır. Müntəzəm alqı-satqı bazarda hüquqi baza və ya konvensiya ilə müəyyən edilmiş vaxt çərçivəsində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alqı-satqısıdır.

Bütün tanınan maliyyə aktivləri sonradan bütövlükdə maliyyə aktivlərinin təsnifatından asılı olaraq amortizasiya olunmuş dəyər və ya ədalətli dəyərlə ölçülür.

***Maliyyə aktivlərinin təsnifatı***

Aşağıdakı şərtlərə cavab verən borc alətləri daha sonra amortizasiya dəyəri ilə ölçülür:

- Maliyyə aktivinin məqsədi müqavilə üzrə pul vəsaitlərinin toplanması üçün maliyyə aktivlərinə sahib olmaq olan biznes modeli çərçivəsində saxlanılması; və

- Maliyyə aktivinin aid olduğu müqavilə üzrə şərtlərinin müəyyən edilmiş tarixlərdə yalnız qalan borc məbləği üzrə əsas və faiz məbləğlərinin ödənişlərindən ibarət pul vəsaitlərinin hərəkətinə gətirib çıxarması.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan sair məcmu gəlirdə ədalətli dəyərlə (DMGƏD) ölçülür:

- Maliyyə aktivinin həm müqavilə üzrə pul vəsaitlərinin toplanması, həm də maliyyə aktivlərinin satılması yolu ilə məqsədinə çatan biznes modeli çərçivəsində saxlanması; və
- Maliyyə aktivinin aid olduğu müqavilə üzrə şərtlərinin müəyyən edilmiş tarixlərdə yalnız qalan borc məbləği üzrə əsas və faiz məbləğlərinin ödənişlərindən ibarət pul vəsaitlərinin hərəkətinə gətirib çıxarması.

Bir qayda olaraq, bütün sair maliyyə aktivləri sonradan mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülür.

***Amortizasiya olunmuş dəyər və effektiv faiz metodu***

Effektiv faiz metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur.

Alınmış və ya verilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri xaricindəki maliyyə aktivləri üçün (yəni, ilkin tanınmada kredit üzrə dəyərsizləşən aktivlər) effektiv faiz dərəcəsi təxmin edilən gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin, əməliyyat xərclərinin və digər mükafat və güzəştlərin ayrılmaz hissəsini təşkil edən ödənilmiş və ya alınmış bütün haqlar və ballar) gözlənilən kredit zərərləri istisna olmaqla, borc alətinin gözlənilən müddəti və ya müvafiq hallarda, daha qısa müddət ərzində, ilkin tanınma zamanı borc alətinin ümumi balans dəyərinə qədər dəqiqliklə diskontlaşdıran dərəcədir.

Maliyyə aktivinin amortizasiya dəyəri maliyyə aktivinin ilkin tanınma zamanı əsas ödənişlər çıxılmaqla, hər hansı zərər ehtiyatı üçün düzəliş edilmiş həmin ilkin məbləğ və ödəmə məbləği arasındakı hər hansı fərqin effektiv faiz metodundan istifadə edilərək məcmu amortizasiya əlavə edilməklə hesablanan məbləğdir. Maliyyə aktivinin ümumi balans dəyəri maliyyə aktivinin hər hansı zərər ehtiyatı üçün düzəliş edilməzdən əvvəlki amortizasiya dəyəridir.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi***

Qrup borc alətlərinə investisiyalar üzrə gözlənilən kredit zərərlərini üçün zərər ehtiyatı tanıyır. Gözlənilən kredit zərərlərinin məbləği müvafiq maliyyə alətinin ilkin tanındığı dövrdən etibarən kredit riskindəki dəyişiklikləri əks etdirmək üçün hər hesabat tarixində yenilənir.

Ticarət debitor borcları üzrə gözlənilən kredit zərərləri Qrupun keçmiş kredit zərəri təcrübəsinə əsaslanmaqla və borcalanlara xas olan faktorları, ümumi iqtisadi şəraiti, habelə uyğun olduqda pulun zaman dəyərini, hesabat tarixində hadisələrin cari və proqnozlaşdırılan gedişatını nəzərə alaraq, ehtiyat matrisasından istifadə etməklə hesablanır. Qrup həmişə ticarət debitor borcları üzrə zərər ehtiyatını ömürlük gözlənilən kredit zərərlərinə ("ömürlük GKZ") bərabər məbləğdə ölçür.

Bütün sair maliyyə alətləri üçün Qrup ömürlük GKZ-ni ilkin tanınmadan sonra kredit riskində mühüm artım olduqda tanıyır. Lakin, maliyyə aləti üzrə kredit riskində ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artım olmazsa, Qrup maliyyə aləti üçün zərər ehtiyatını 12 aylıq gözlənilən kredit zərərinə bərabər məbləğdə ölçür.

Ömürlük gözlənilən kredit zərəri maliyyə alətinin gözlənilən müddəti ərzində mümkün defolt hadisələrindən yarana bilən gözlənilən kredit zərərlərini əks etdirir. Əksinə, 12 aylıq gözlənilən

kredit zərərləri ömürlük gözlənilən kredit zərərlərinin hesabat tarixindən sonrakı 12 ay müddətində maliyyə alətləri ilə bağlı üzrə mümkün defolt hadisələrindən yarana bilən hissəsini əks etdirir.

*(i) Kredit riskində əhəmiyyətli artım*

Maliyyə aləti üzrə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artıb artmadığını qiymətləndirmək üçün Qrup hesabat tarixində maliyyə aləti üzrə yaranan defolt riskini ilkin tanınma tarixində maliyyə aləti yaranan defolt riski ilə müqayisə edir. Bu qiymətləndirməni apararkən Qrup kəmiyyət və keyfiyyət baxımından uyğun olan təsdiqləyici məlumatları, habelə keçmiş təcrübəni və mühüm xərc və səylər olmadan əldə edilə bilən proqnoz tipli məlumatları nəzərə alır. Proqnoz tipli məlumatlara Qrupun debitorlarının fəaliyyət göstərdiyi sənaye sahələri ilə bağlı iqtisadi ekspert hesabatlarından, maliyyə təhlillərindən, dövlət idarələrindən, müvafiq elmi-tədqiqat mərkəzlərindən və oxşar təşkilatlardan əldə olunmuş gələcək perspektivlər, habelə Qrupun əsas əməliyyatları ilə bağlı müxtəlif xarici mənbələrdən əldə olunan cari və gələcək dövrlər üzrə iqtisadi məlumatlar daxildir.

Yuxarıdakı qiymətləndirmənin nəticəsindən asılı olmayaraq Qrup maliyyə aləti üzrə kredit riskinin müqavilə əsasında ödənişlər 30 gündən artıq gecikdirildiyi halda, Qrup əksini göstərən müvafiq və etibarlı məlumatlara malik olmayanadək ilkin tanınma dövründən etibarən əhəmiyyətli dərəcədə artdığını zənn edir

*(ii) Defolt anlayışı*

Keçmiş təcrübə daxili və kənar mənbələrdən əldə olunan məlumat əsasında debitorun öz kreditorlarına eləcə də Qrupa tam həcmdə ödəniş edə bilməyəcəyini göstərirsə, Qrup bunu daxili risklərin idarə edilməsi məqsədləri üçün defolt hadisəsi adlandırır.

Yuxarıdakı təhlillərdən asılı olmayaraq, maliyyə aktivi 360 gündən artıq gecikdirildiyi halda Qrup defolt baş verdiyini hesab edir, lakin Qrupda daha münasib defolt meyarının uyğun olduğunu təsdiq edən müvafiq və etibarlı məlumat olduğu hallar istisnadır

*(iii) Gözlənilən kredit zərərlərinin ölçülməsi və tanınması*

Gözlənilən kredit zərərlərinin ölçülməsi defolt ehtimalını, defolt nəticəsində yaranan zərərlərin həcmini (defolt baş verdikdə zərərin ölçüsünü) və defolt zamanı riskə məruz qalmanı müəyyən edir.

Qrup bütün maliyyə alətləri üçün dəyərsizləşmə gəlirini və ya zərərini onların balans dəyərinə zərər ehtiyatında müvafiq düzəlişlər etməklə mənfəət və ya zərər hesablarında tanıyır

***Maliyyə aktivlərinin tanınmasının dayandırılması***

Qrup yalnız aktivdən pul daxilolmaları üzrə onun müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və mükafatları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

***Borc və ya kapital qismində təsnifləşdirmə***

Borc və Qrup tərəfindən buraxılmış kapital alətləri müqavilə şərtlərinə, habelə maliyyə öhdəliyi və kapital alətləri haqqında anlayışa əsasən maliyyə öhdəlikləri və ya kapital kimi təsnif edilir.

***Kreditlər və borclar***

Borc vəsaitləri ilk olaraq çəkilmiş əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərlə tanınır. Borc vəsaitləri amortizasiya dəyəri ilə ölçülür, mənfəətlə (əməliyyat xərcləri çıxılmaqla) geri alınma dəyəri arasındakı

fərq isə effektiv faiz metodundan istifadə etməklə konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda borcların müddəti üzrə tanınır.

***Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması***

Maliyyə öhdəliklərinin tanınması yalnız və yalnız Qrup öz ödəniş öhdəliyini yerinə yetirdikdə, belə öhdəlik ləğv olunduqda, yaxud müddəti başa çatdıqda dayandırılır. Tanınması dayandırılmış maliyyə öhdəliyinin balans dəyəri ilə öhdəliklər üzrə ödənilmiş və ödəniləcək məbləğlər arasındakı fərq konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda tanınır.

***Maliyyə aktivlərinin və öhdəliklərinin əvəzləşdirilməsi***

Maliyyə aktivləri və maliyyə öhdəlikləri yalnız konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün Qrupun qanuni hüququ mövcud olduqda və xalis məbləğ əsasında hesablaşmalar aparılması, yaxud aktivlərin satılması və öhdəliyin yerinə yetirilməsi barədə niyyəti olduqda qarşılıqlı əvəzləşdirilir, xalis məbləğ isə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda açıqlanır. Uçotda tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanuni hüquq gələcək hadisələrdən asılı olmamalıdır və nəinki adi fəaliyyət prosesində, hətta defolt, ödəmə qabiliyyətinin itirilməsi və müflisləşmə hallarında da etibarlı olmalıdır. Gəlir və xərclər hər hansı bir mühasibat standartı, yaxud şərhində və Qrupun mühasibat uçotu siyasətlərində xüsusi olaraq açıqlanması tələb olunmayanadək və ya icazə verilməyənədək konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əvəzləşdirilmir.

**Ehtiyatlar**

Ehtiyatlar, Qrup keçmiş hadisələr nəticəsində cari (hüquqi və ya konstruktiv) öhdəliyə malik olduqda, Qrupun öhdəliyi yerinə yetirməsi ehtimalı yüksək olduqda və öhdəliyin məbləği ilə bağlı etibarlı qiymətləndirilmə aparmaq mümkün olduqda tanınır.

Ehtiyatlar kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün hesablanmasıdır. Ehtiyat hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitləri axınına istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabərdir.

Ehtiyatların yerləşdirilməsi üçün tələb olunan müəyyən və ya bütün iqtisadi mənfəətin kənar tərəflər vasitəsilə bərpa ediləcəyi gözlənilirsə, bu vəsaitin qaytarılması və alınacaq belə vəsaitlərin düzgün qiymətləndirilməsi barədə qəti əminlik olduqda alınacaq məbləğ uçotda aktiv kimi tanınır.

**Cari il üçün qüvvədə olan yeni və düzəliş edilmiş MHBS standartları**

***MHBS 16-ya düzəlişlər – 30 iyun 2021-ci il tarixindən etibarən COVİD-19 ilə əlaqəli İcarə Güzəştlərinin ilkin tətbiqinin təsiri***

Ötən il, Qrup COVİD-19 ilə Əlaqəli İcarə Güzəştlərini (16 saylı MHBS-ya düzəliş) erkən tətbiq etdi ki, bu da MHBS 16-ya praktiki vasitəni daxil etməklə COVİD-19-un birbaşa təsirindən yaranan icarə güzəştlərinin uçotunda icarəçiyə praktiki həll yolu tanıyır. Bu praktiki həll yolunun tətbiqi, 30 iyun 2021-ci il tarixində və ya ondan öncəki ödənişlərə təsir edən icarə ödənişlərindəki istənilən azalmalarla bağlı icarə güzəştlərinə mümkün edilmişdir.

2021-ci ilin mart ayında Şura 30 iyun 2021-ci ildən etibarən COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri haqqında standarta düzəlişləri (MHBS 16-ya düzəlişlər) təqdim etdi ki, bu da ilkin olaraq 30 iyun 2022-ci il tarixində və ya ondan öncəki icarə ödənişlərindəki azalmalara yönələn praktiki həllin tətbiqini artırır.

Cari maliyyə ilində, Qrup MHBS 16-ya düzəlişləri (2021-ci ilin may ayında Şura tərəfindən buraxılan) onun qüvvəyə minmə tarixindən əvvəl tətbiq etmiş, lakin Qrupun əvvəlki və ya cari illər ərzində COVİD-19 ilə birbaşa əlaqəli olan hər hansı icarə güzəştləri olmamışdır.

**Buraxılmış lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilmiş MHBS-lər**

Bu konsolidə edilmiş maliyyə hesabatlarının təsdiq olunduğu tarixdə Qrup aşağıdakı buraxılmış lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilmiş MHBS standartlarını tətbiq etməmişdir:

| **Standartlar və şərhlər** | **Aşağıdakı tarixdə başlayan və ondan sonrakı illik dövrlər üçün qüvvədədir** |
|---|---|
| MHBS 17 (MHBS 17-yə 2020-ci ilin iyun ayında edilən dəyişikliklər daxil olmaqla) *Sığorta Müqavilələri* | 1 yanvar 2023 |
| *İnvestorla onun asılı müəssisəsi və ya birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi* haqqında MHBS 10 və MUBS 28-ə düzəlişlər | Müəyyən edilməyib |
| *Öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirilməsi* haqqında MUBS 1-ə düzəlişlər | 1 yanvar 2023 |
| *Konseptual Əsaslara edilən istinadlar* haqqında MHBS 3-ə düzəlişlər | 1 yanvar 2022 |
| *Təyinatı üzrə istifadədən əvvəl əmlak, tikili və avadanlıqlardan əldə olunan gəlir* haqqında MUBS 16-ya düzəlişlər | 1 yanvar 2022 |
| *Ağır şərtli müqavilələr - Müqavilənin yerinə yetirilməsi xərcləri* haqqında MUBS 37-yə düzəlişlər | 1 yanvar 2022 |
| 2018-2020-ci illəri əhatə edən dövr üzrə MHBS standartlarına illik düzəlişlər | |
| *Maliyyə Hesabatının Beynəlxalq Standartlarının ilk dəfə tətbiqi* haqqında MHBS 1-ə, *Maliyyə alətləri* haqqında MHBS 9-a, *İcarə* haqqında MHBS 16-ya və *Kənd təsərrüfatı* haqqında MUBS 41-ə düzəlişlər | 1 yanvar 2022 |
| *Mühasibat uçotu siyasətlərinin açıqlaması* MUBS 1 və MHBS 2 Praktiki hesabatı 2-yə düzəlişlər | 1 yanvar 2023 |
| *Mühasibat uçotu təxminlərinin müəyyən edilməsi* haqqında MUBS 8-ə düzəlişlər | 1 yanvar 2023 |
| *Vahid əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergi* haqqında MUBS 12-yə düzəlişlər | 1 yanvar 2023 |

Rəhbərlik, yuxarıda qeyd olunan standartların tətbiqinin gələcəkdə Qrupun konsolidə edilmiş maliyyə hesabatlarına mühüm təsir edəcəyini gözləmir.

## 4. MÜHÜM MÜHASİBAT UÇOTU MÜHAKİMƏLƏRİ VƏ QİYMƏTLƏNDİRMƏLƏRLƏ BAĞLI QEYRİ-MÜƏYYƏNLİYİN ƏSAS MƏNBƏLƏRİ

Qrupun 3 saylı Qeyddə əks olunan mühasibat uçotu siyasətlərini tətbiq edərkən rəhbərlikdən tanınmış məbləğlərə mühüm təsir edən (qiymətləndirmə tələb edənlərdən başqa) mühakimələrin yürüdülməsi və digər mənbələrdən açıq əldə edilməsi mümkün olmayan aktiv və öhdəliklərin balans dəyərinə dair təxminlərin və ehtimalların irəli sürülməsi tələb olunur. Təxminlər və əlaqədar ehtimallar keçmiş təcrübəyə və digər müvafiq amillərə əsaslanır. Real nəticələr bu təxminlərdən fərqlənə bilər.

Təxminlər və əsas götürülən ehtimallar davamlı qaydada təhlil edilir. Mühasibat təxminlərinə olan düzəlişlər, belə düzəliş yalnız onun baş verdiyi dövrə təsir göstərdikdə həmin dövrdə, cari və gələcək dövrlərə təsir göstərdikdə isə, düzəlişin baş verdiyi və gələcək dövrdə tanınır.

**Qrupun mühasibat uçotu siyasətlərinin tətbiqi zamanı irəli sürülən mühüm mühakimələr**

Aşağıda Qrupun mühasibat uçotu siyasətlərini tətbiq edərkən rəhbərliyin irəli sürdüyü və konsolidə edilmiş maliyyə hesabatlarında tanınan məbləğlərə əhəmiyyətli dərəcədə təsir göstərən mühüm mühakimələr açıqlanır.

***Füzuli Beynəlxalq Hava Limanının alınması***

13 dekabr 2021-ci ildə törəmə müəssisə olaraq Füzuli Hava Limanı MMC üzrə 100% nəzarət Qrupa ötürülmüşdür. Bu hava limanının strateji və siyasi əhəmiyyətini nəzərə alaraq, Füzuli Hava Limanı MMC-nin əvvəlki səhmdarları nəzarəti təmənnasız olaraq Qrupa ötürmüş və Qrup tərəfindən bunun qarşılığında hər hansı bir məbləğ ödənilməmişdir.

Rəhbərlik nəzarətin ötürülməsinin uçot qaydasını qiymətləndirərkən bu əməliyyatda hökumətin səhmdar qismində çıxış edərək səhmdar yatırımı və ya hökümət qismində çıxış edərək qeyri-monetar hökumət subsidiyası kimi uçota alınıb-alınmaması ilə bağlı qərar verərkən mühüm mühakimə yürütmüşdür. Əməliyyatın mahiyyətini nəzərə alaraq, rəhbərlik nəzərə almışdır ki, hava limanı qeyri-hökumət müəssisələri tərəfindən inşa edilsə də, Azərbaycan Hava Yolları QSC ölkənin qalan hava limanları üzrə hökumətin təyin etdiyi operator, eləcə də sərnişin daşıması üzrə yeganə aviasiya şirkəti olduğu üçün ona nəzarət Qrupa ötürülmüşdür və beləliklə, hava limanı infrastrukturu aktivlərinin təbii resipiyentidir və ictimai mənafe üçün aktivlərin effektiv idarəçiliyi baxımından ən uyğun tərəfdir. Bu səbəbdən rəhbərlik qərara gəlmişdit ki, müvafiq əməliyyat MUBS 20-nin tətbiq dairəsinə daxildir və aktivlərlə bağlı qeyri-monetar subsidiya kimi uçota alına bilər. Bu ötürülmə nəticəsində Qrup 44,500 AZN məbləğində aktivləri və əlaqədar hökumət subsidiyası öhdəliyini (ötürülən əmlak və avadanlığın faydalı istismar müddəti üzrə amortizasiya olunmalıdır) konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda tanımışdır (Qeyd 21-ə bax).

Qrupun rəhbərliyi hazırda Füzuli Beynəlxalq Hava Limanının ayrıca hüquqi şəxs kimi likvidasiyası və yaxın gələcəkdə Şirkətə birləşdirilməsi prosesini həyata keçirməkdədir.

***COVİD-19 ilə əlaqədar hökumətdən alınmış subsidiyalar***

Hökumət COVİD-19 pandemiyasının mənfi təsirinə məruz qalan müəssisələri dəstəkləmək üçün maliyyə yardımı proqramını həyata keçirmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 mart 2020-ci il tarixli qərarına əsasən 2021-ci il ərzində Qrup hökumətdən 98,909 AZN (AZAL üçün 86,000 AZN və Milli Aviasiya Akademiyası üçün 12,909 AZN) məbləğində maliyyə yardımı almışdır (2020: AZAL üçün 215,467 AZN, Milli Aviasiya Akademiyası üçün 15,433 və Naxçıvan Beynəlxalq Hava Limanı üçün 1,182 AZN).

Rəhbərlik alınan hökumət yardımının uçot qaydalarını qiymətləndirərkən bu yardımın səhmdar qismində çıxış edən hökumət tərəfindən yatırımlar və ya gəlirlə bağlı hökumət subsidiyası kimi uçota alınıb alınmaması ilə bağlı qərar verərkən mühüm mühakimə yürütmüşdür. Qarşılığında kapital alətlərinin buraxılmadığını, hökumətin qərarında kapital təyinatlı yardımın müəyyən edilmədiyini və analoji maliyyə yardımının hökumətə məxsus olub-olmamasından asılı olmayaraq digər şirkətlərə də göstərildiyini nəzərə alaraq rəhbərlik bu əməliyyatın MUBS 20-yə əsasən səhmdar yatırımı deyil, hökumət subsidiyası olduğu qərarına gəlmişdir. Müvafiq olaraq, subsidiya ilə bağlı heç bir şərt və ya gələcək əlaqəli xərclər olmadığından, məbləğ tam olaraq konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda gəlir kimi tanınmışdır.

**Təxminlərlə bağlı qeyri-müəyyənliyin əsas mənbələri**

Aşağıda, Qrupun mühasibat uçotu siyasətlərini tətbiq edərkən rəhbərliyin irəli sürdüyü və konsolidə edilmiş maliyyə hesabatlarında tanınan məbləğlərə əhəmiyyətli dərəcədə təsir göstərən mühüm təxminlər açıqlanır.

***Dəyərsizləşmə yoxlaması***

Qrup hər hesabat tarixinin sonunda dəyərsizləşmə göstəricilərinin olub-olmadığını yoxlayır. Hər hansı dəyərsizləşmə göstəriciləri müəyyən olunarsa Qrup dəyərsizləşmə yoxlamasını yerinə yetirir.

Əmlak və avadanlıq və istifadə hüququ olan aktivlərin bərpa dəyəri Hava Limanları, Aeronaviqasiya, AZALOil PVYV (Pul Vəsaitlərini Yaradan Vahid) üçün hesablamalarda istifadə olunan dəyər əsasında və Aviaşirkət PVYV üçün isə ədalətli dəyər çıxılsın satış xərcləri əsasında müəyyən edilir. Bu hesablamalar Qeyd 10-da daha təfərrüatlı açıqlanan təxminlərdən istifadəni tələb edir.

***Əmlak və avadanlığın faydalı istismar müddətləri***

Rəhbərlik əmlak və avadanlığın faydalı istismar müddətlərini aktivlərin planlaşdırılan istifadəsinə əsaslanmaqla və belə aktivlərin Qrupa iqtisadi mənfəət gətirəcəyi dövrü hesablamaqla təyin edir. Qrupun əmlak və avadanlığı düz xətt metodunu tətbiq etməklə onların təxmin edilən faydalı istismar müddətləri və ya uçuş dövrələri / saatları üzrə amortizasiya olunur ki, bunlar da rəhbərliyin biznes planlarına və əməliyyat hesablamalarına əsaslanır. Texnoloji yeniliklər və yaxud müvafiq aktivlərin ehtimal edilən gələcək istifadəsi kimi sonradan baş verən dəyişikliklər, faktiki faydalı istismar müddətinin və yaxud qalıq dəyərinin ilkin qiymətləndirmələrdən fərqlənməsi ilə nəticələnə bilər. Rəhbərlik dövri olaraq əmlak və avadanlıqların qalan faydalı istismar müddətlərini nəzərdən keçirir. Əmlak və avadanlığın istismar müddətinin hesablanmasına edilmiş düzəlişlər gələcəkdə belə düzəlişin təsadüf etdiyi dövr və mümkün olduğu halda gələcək dövrlərdə uçotda tanınır. Nəticə etibarı ilə bu, hesablanmış amortizasiya məbləğinə və gələcəkdə uçotda tanınacaq əmlak və avadanlıqların balans dəyərinə mühüm təsir edə bilər.

***ƏDV aktivlərinin bərpa olunması***

Vergi orqanlarından alınacaq borcları əks etdirən ƏDV aktivləri üzrə qalıqlar (hesab fakturaların ödənilməsi və malların və ya xidmətlərin göstərilməsi nəticəsində yaranmış əvəzləşdirilən ƏDV məbləğləri) vergi orqanına edilən ödənişə bərabərdir və Qrupun gələcək vergi öhdəliklərinin əvəzləşdirilməsində istifadə oluna bilər. Rəhbərlik inanır ki, hökumət tərəfindən ödənilməli ƏDV aktivi üzrə qalıqlar əvəzləşdiriləndir və gələcək vergi öhdəliklərinin əvəzləşdirilməsində istifadə olunacaq. Qrupun vergi aktivlərini öhdəliklərlə əvəzləşdirə bilməsi üçün vergi orqanlarının icazəsinə ehtiyac yoxdur, beləliklə, vergi öhdəlikləri hesablandıqda vergi aktivləri ilə əvəzləşdirilə bilər. Bu o deməkdir ki, vergi aktivləri on iki ay ərzində əhəmiyyətli dövr edir və əvəzləşdirilə bilir. Lakin 31 dekabr 2021-ci il tarixinə Qrupun rəhbərliyi vergi orqanlarından hələ alınmamış ƏDV aktivi ("alışlardan yaranan və əvəzləşdiriləcək ƏDV") üzrə qalıqları təhlil etmiş və 42,933 AZN məbləğində belə vəsaitlərin şübhəli

alacaqlar (31 dekabr 2020-ci il: 82,809 AZN) olduğunu müəyyən etmişdir, eyni zamanda il ərzində belə qalıqların 36,538 AZN hissəsi rəhbərlik tərəfindən tanınmış əvvəlki ehtiyatlar hesabına silinmişdir. Əvvəlki ilə uyğun olaraq Qrupun rəhbərliyi hesab edir ki, bu ƏDV qalıqları üzrə müvafiq kreditor borc qalıqlarının nağd şəkildə (həmin qarşı tərəflərlə debitor borclara qarşı vergi ilə birlikdə deyil, çox ehtimal ki, xalis əsasda ödəniləcək) ödənilməyəcəyi səbəbindən bu qalıqlar yaxın gələcəkdə əvəzləşdirilməyəcək.

***Vergitutma***

Mənfəət vergisi üçün ehtiyatı müəyyən edərkən mühüm mülahizələrin irəli sürülməsi tələb olunur. Bir çox əməliyyatlar və hesablamalar üçün yekun vergi yanaşması yoxdur. Qrup vergi yoxlaması nəticəsində gözlənilən əlavə vergi qiymətləndirmələri üçün öhdəlikləri əlavə vergi öhdəliklərinin yaranıb-yaranmayacağı ehtimalı əsasında tanıyır. Bu məsələlərin vergi nəticəsi tanınmış ilkin məbləğlərdən fərqli olduqda, bu cür fərqlər mənfəət vergisi ehtiyatlarına belə qərarların verildiyi dövrdə təsir edəcək. Vergi dövrləri vergi yoxlamasından əvvəlki 3 il üzrə müvafiq orqanlar tərəfindən yoxlanılır. Müəyyən vəziyyətlərdə belə yoxlamalar daha çox dövrləri əhatə edə bilər. Qrup rəhbərliyi vergi qanunvericiliyi üzrə anlayışına əsasən bütün vergi öhdəliklərini lazımi şəkildə yerinə yetirdiyini düşünsə də, yuxarıda qeyd olunan faktlar Qrup üçün əlavə maliyyə riskləri yarada bilər.

31 dekabr 2021 və 2020-ci il tarixlərində vergilərə dair heç bir ehtiyat tanınmamışdır.

Gələcək dövrlərə keçirilən vergi zərərləri ilə əlaqədar təxirə salınmış vergi aktivi konsolidə edilmiş maliyyə hesabatlarında təqdim olunan bütün dövrlər üçün tanınmamışdır (31 dekabr 2021 və 2020-ci il tarixlərinə müvafiq olaraq 28,573 AZN və 115,179 AZN və yarandığı tarixdən 5 il sonra vaxtı bitir), çünki Qrupun yaxın gələcəkdə növbəti dövrlərə keçirilən həmin vergi zərərlərini istifadə edəcəyinə dair kifayət qədər əminlik yoxdur.

## 5. DAŞIMALAR ÜZRƏ VƏ DİGƏR GƏLİRLƏR

| | 2021 | 2020 |
|---|---|---|
| Qrafik üzrə sərnişin daşımaları | 194,230 | 128,662 |
| Hava limanı və aviasiya təhlükəsizliyi xidmətləri | 112,410 | 58,145 |
| Yanacaq doldurma xidmətləri | 97,978 | 53,449 |
| Aeronaviqasiya xidmətləri | 45,456 | 35,271 |
| Çarter sərnişin daşımaları | 15,991 | 39,584 |
| Yük daşımaları | 2,617 | 2,528 |
| Sair gəlirlər | 23,068 | 17,597 |
| **Cəmi daşımalar üzrə və sair gəlirlər** | **491,750** | **335,236** |

COVİD-19 pandemiyası ilə bağlı hadisələr və bununla bağlı hökumətlər tərəfindən tətbiq edilən məhdudiyyətlər 2020 və 2021-ci illərdə Qrupun fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. 2020-ci ildə məhdudiyyətlər yüngülləşdirildikdən sonra Qrup bir sıra istiqamətlərə xüsusi uçuşlar açmışdır. COVİD-19 pandemiyasının yayılmasının qarşısını almaq üçün həyata keçirilən xüsusi tədbirlər istisna olmaqla, mahiyyət etibarilə xüsusi uçuşlar planlaşdırılmış müntəzəm uçuşlara bənzəyir. Bu uçuşlardan əldə olunan gəlir qrafik üzrə sərnişin daşımaları gəlirinə daxil edilmişdir.

## 6. ƏMƏLİYYAT XƏRCLƏRİ

| | 2021 | 2020 |
|---|---|---|
| Köhnəlmə və amortizasiya | 124,235 | 139,678 |
| Yanacaq xərcləri | 105,161 | 52,712 |
| Heyət xərcləri | 99,083 | 107,068 |
| Hava gəmilərinə və digər əsas vəsaitlərə xidmət xərcləri | 29,150 | 54,336 |
| Kommersiya xidmətləri və komissiyalar | 30,933 | 16,614 |
| Yerüstü xidmətlər | 27,920 | 23,420 |
| Mənfəət vergisindən başqa vergilər | 27,148 | 25,174 |
| Göyərtədə qidalanma və içki xidmətləri | 14,521 | 10,602 |
| Azərbaycandan kənarda aeronaviqasiya xidmətləri | 12,626 | 14,089 |
| Material xərcləri | 11,952 | 6,397 |
| Xarici hava limanlarında sərnişinlərlə bağlı yığımlar | 11,436 | 7,991 |
| Sığorta xərcləri | 6,012 | 10,088 |
| Elektrik enerjisi xərcləri | 5,670 | 5,303 |
| Əmlak və avadanlıq və istifadə hüququ olan aktivlərin dəyərsizləşməsi | 4,594 | 15,794 |
| Kommunikasiya xərcləri | 3,883 | 6,441 |
| Konsultasiya xərcləri | 3,862 | 1,359 |
| Sərnişinlərə xidmətlər | 2,090 | 5,136 |
| Ezamiyyə xərcləri | 1,731 | 2,632 |
| Verilmiş avansların dəyərsizləşmə ehtiyatında dəyişiklik | (1,850) | (86) |
| Əvəzləşdirilən ƏDV qalığının dəyərsizləşmə ehtiyatında dəyişiklik | (3,525) | (476) |
| Kapital qoyuluşlarının dəyərsizləşmə ehtiyatında dəyişiklik | (4,392) | 4,797 |
| Sair xərclər | 29,617 | 31,067 |
| Sair gəlirlər | (2,165) | (2,665) |
| **Cəmi əməliyyat xərcləri** | **539,692** | **537,471** |

4,594 AZN məbləğində istifadə hüququ olan aktivlərin dəyərsizləşməsi 10 və 11 saylı qeydlərdə təfərrüatlı şəkildə göstərildiyi kimi il ərzində tanınmışdır. Qrupun əməliyyatları 2020-ci ildə məruz qaldığı COVİD-19 pandemiyasının əhəmiyyətli dərəcədə mənfi təsirindən sonra qismən bərpa olduğu üçün 2021-ci ildə Qrupun əsas əməliyyat xərcləri əvvəlki il ilə müqayisədə artmışdır. Heyət xərclərinə 31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə 18,933 AZN (31 dekabr 2020: 20,548 AZN) məbləğində sosial ödənişlərlə bağlı xərclər daxildir. Sair xərclərə əsasən qısamüddətli və aşağı dəyərli icarə ilə bağlı xərclər və Qrupun ayrılıqda əhəmiyyətli olmayan sair xərcləri daxildir.

## 7. MALİYYƏ XƏRCLƏRİ

| | 2021 | 2020 |
|---|---|---|
| Kreditlər və borc vəsaitləri üzrə faiz xərci | 75,691 | 69,647 |
| İcarə öhdəlikləri üzrə faiz xərci | 11,133 | 14,319 |
| **Cəmi maliyyə xərcləri** | **86,824** | **83,966** |

## 8. XARİCİ VALYUTA MÜBADİLƏSİNDƏN YARANAN GƏLİR / (ZƏRƏR)

Qrupun satış və alış əməliyyatları, eləcə də kredit, borc vəsaitləri və icarələri üzrə əməliyyatların əsas hissəsi ABŞ dolları və AVRO ilə həyata keçirilir. 2021 və 2020-ci illərdə xarici valyuta məzənnəsi üzrə müvafiq olaraq gəlir və zərərin əsas hissəsi kreditlərdən və borclardan, pul vəsaitləri və onların ekvivalentlərindən və ticarət debitor borclarından yaranmışdır.

## 9. MƏNFƏƏT VERGİSİ

| | 2021 | 2020 |
|---|---|---|
| Cari vergi xərci | - | 762 |
| Təxirə salınmış vergi (gəliri) / xərci | (6,274) | 9,457 |
| **Cəmi mənfəət vergisi (gəliri) / xərci** | **(6,274)** | **10,219** |

20% yerli mənfəət vergisi dərəcəsi ilə hesablanmış il üzrə mənfəət vergisi xərci uçotdakı gəlir ilə aşağıdakı kimi müqayisə oluna bilər:

| | 2021 | 2020 |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl zərər | (73,821) | (66,196) |
| Yerli qanunvericilikdəki vergi dərəcəsi (20%) ilə mənfəət vergisi gəliri | (14,764) | (13,239) |
| Gəlirdən çıxılmayan xərclərin təsiri | 15,077 | 16,015 |
| Mənfəət vergisi ehtiyatının təsiri | - | 762 |
| Uçotda tanınmamış vergi zərərlərinin və əvvəllər tanınmamış vergi zərərlərinin istifadəsinin təsiri | (6,587) | 6,681 |
| **Cəmi mənfəət vergisi (gəliri) / xərci** | **(6,274)** | **10,219** |

## 10. ƏMLAK VƏ AVADANLIQ

| | Binalar və infrastruktur | Hava gəmisi və mühərriklər | Texnika və avadanlıq | Sair əmlak və avadanlıq | Kapital qoyuluşları | Cəmi |
|---|---|---|---|---|---|---|
| ***İlkin dəyər*** | | | | | | |
| **1 yanvar 2020-ci il tarixinə** | **809,663** | **695,291** | **271,126** | **90,024** | **63,054** | **1,929,158** |
| Əlavələr | 8,574 | 20,906 | 15,373 | 2,837 | 10,881 | 58,571 |
| Aktivlərin silinməsi | (61) | (8,344) | (119) | (1,295) | - | (9,819) |
| İstifadə hüququ olan aktivlərin ötürülməsi | - | (39,149) | - | - | - | (39,149) |
| Aktivlərin ötürülməsi | 61,131 | 913 | 24,218 | (26,254) | (60,008) | - |
| **31 dekabr 2020-ci il tarixinə** | **879,307** | **669,617** | **310,598** | **65,312** | **13,927** | **1,938,761** |
| Əlavələr | 691 | 5,960 | 21,455 | 441 | 24,829 | 53,376 |
| Törəmə müəssisənin alınması | 39,130 | - | 4,028 | 1,035 | - | 44,193 |
| Törəmə müəssisənin silinməsi | (83,241) | - | (23,921) | (12,444) | - | (119,606) |
| Aktivlərin silinməsi | (549) | (5,149) | (205) | (803) | - | (6,706) |
| Aktivlərin ötürülməsi | 394 | 89 | 25,049 | 101 | (25,633) | - |
| **31 dekabr 2021-ci il tarixinə** | **835,732** | **670,517** | **337,004** | **53,642** | **13,123** | **1,910,018** |
| ***Yığılmış köhnəlmə və dəyərsizləşmə*** | | | | | | |
| **1 yanvar 2020-ci il tarixinə** | **120,204** | **178,494** | **101,707** | **39,954** | **5,073** | **445,432** |
| İl üzrə xərc | 29,291 | 51,323 | 25,677 | 6,466 | - | 112,757 |
| Aktivlərin silinməsi | (22) | (8,344) | (80) | (1,063) | - | (9,509) |
| Dəyərsizləşmə zərəri | 837 | 13,598 | 117 | 579 | 4,797 | 19,928 |
| İstifadə hüququ olan aktivlərin ötürülməsi | - | (12,365) | - | - | - | (12,365) |
| Aktivlərin ötürülməsi | 8,955 | (265) | 622 | (9,312) | - | - |
| **31 dekabr 2020-ci il tarixinə** | **159,265** | **222,441** | **128,043** | **36,624** | **9,870** | **556,243** |
| İl üzrə xərc | 28,290 | 42,121 | 24,851 | 5,723 | - | 100,985 |
| Dəyərsizləşmənin bərpası | - | - | - | - | (4,392) | (4,392) |
| Törəmə müəssisənin silinməsi | (13,515) | - | (7,789) | (7,054) | - | (28,358) |
| Aktivlərin silinməsi | (348) | (4,781) | (69) | (124) | - | (5,322) |
| **31 dekabr 2021-ci il tarixinə** | **173,692** | **259,781** | **145,036** | **35,169** | **5,478** | **619,156** |
| ***Xalis qalıq dəyəri*** | | | | | | |
| **1 yanvar 2020-ci il tarixinə** | **689,459** | **516,797** | **169,419** | **50,070** | **57,981** | **1,483,726** |
| **31 dekabr 2020-ci il tarixinə** | **720,042** | **447,176** | **182,555** | **28,688** | **4,057** | **1,382,518** |
| **31 dekabr 2021-ci il tarixinə** | **662,040** | **410,736** | **191,968** | **18,473** | **7,645** | **1,290,862** |

** 2020-ci il ərzində rəhbərlik əmlak və avadanlıq məbləğlərini daha düzgün açıqlamaq məqsədilə bəzi əmlak və avadanlığı aktivlərin sinifləri üzrə yenidən təsnifləşdirmişdir. Bu, əmlak və avadanlığın balans dəyərinə və il üzrə mənfəət və ya zərərə təsir göstərməmişdir.*

İcarəyə götürülmüş hava gəmisi ilə bağlı ehtiyat mühərrik daha öncə 31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə əmlak və avadanlıqların bir hissəsi kimi göstərilmişdir. 1 yanvar 2020-ci il tarixinə xalis balans dəyəri 26,784 AZN olan ehtiyat mühərrik bütün aktivlərin istifadə hüququ olan aktivlər üzrə təqdim edilməsi məqsədilə əmlak və avadanlıqlardan istifadə hüququ olan aktivlərə ötürülmüşdür.

İnfrastruktur əsasən Qrupun təyyarələri üçün uçuş-enmə zolaqlarından, hava gəmisi dayanacaqlarından, anqar və terminallardan ibarətdir.

2021-ci ildə Qrupun tikinti işləri və avadanlıqların quraşdırılması ilə məşğul olan əsas təchizatçıları arasına müvafiq olaraq Zəngilan Hava Limanı üçün naviqasiya avadanlığını və Hava Məkanının Səmərəliliyi Mərkəzinin tikinti işlərini təmin edən Airport and ATC Systems GmbH, MCG Middle East və Thales Las France S.A.S daxildir.

2020-ci ildə Qrupun tikinti işləri ilə məşğul olan əsas təchizatçıları arasına müvafiq olaraq Naxçıvan Beynəlxalq Hava Limanında Hava Məkanının Səmərəliliyi Mərkəzinin, simulyator binasının və uçuş-enmə zonasının tikintisini təmin edən Thales Las France S.A.S, Retro Holding MMC və Gəmiqaya Holdinq daxildir.

2021-ci il ərzində Qrup 31 dekabr 2021-ci il tarixinə balans dəyəri 2,092 AZN olan üç vertolyotun satılması ilə bağlı qərar qəbul etmişdir, lakin MHBS 5-in kriteriyaları üzrə qiymətləndirmə nəticəsində Qrup qənaətə gəlmişdir ki, vertolyotlar satış üçün saxlanılan uzunmüddətli aktivlərin tanınma meyarlarına cavab vermir.

31 dekabr 2020 və 2021-ci il tarixlərinə Qrupun hər hansı əmlak və avadanlığı girov qoyulmamışdır.

***Dəyərsizləşmənin yoxlanması***

"Aktivlərin dəyərsizləşməsi" adlı 36 saylı MUBS-a uyğun olaraq, müəssisədən hər hesabat dövrünün sonunda aktivlərin dəyərsizləşməsinə dair hər hansı göstəricinin olub-olmadığını qiymətləndirmək tələb olunur. Qrup COVİD-19 pandemiyasının davam edən təsirini və onun Aviaşirkət PVYV-si üçün dəyərsizləşmə göstəricisi kimi sənayeyə təsirini qiymətləndirmiş və bu PVYV üzrə dəyərsizləşmə yoxlaması həyata keçirmişdir. Hava limanları, Aeronaviqasiya və AZALOil PVYV-ləri üçün bərpa edilə bilən məbləğlər müvafiq fəaliyyətlər nəticəsində yaranacaq gələcək pul vəsaitlərinin hərəkətini diskontlaşdırmaqla istifadə dəyərinə əsasən müəyyən edilir, lakin Aviaşirkət PVYV-si üçün bərpa edilə bilən məbləğ satış xərcləri çıxılmaqla ədalətli dəyər əsasında təyin edilir (Qeyd 3-ə əlavə edilmiş ədalətli dəyər iyerarxiyasına əsasən 1-ci səviyyə). Nəticə olaraq bu üç PVYV üçün daxili və xarici dəyərsizləşmə göstəriciləri müəyyən olunmamışdır, belə ki, həmin PVYV-lərin istifadə dəyərinin hesablanmasında istifadə olunan pul vəsaitlərinin hərəkətləri Qrupun COVİD-19 pandemiyasının təsiri və ötən ilin hesabat tarixinə böhrandan əvvəlki fəaliyyətinin gözlənilən bərpasına əsasən müəyyən edilmişdir və ötən ildə olduğu kimi sağlam əlavə dəyər yaratmağa davam etmişdir.

Aviaşirkət PVYV-sinə gəldikdə isə, rəhbərlik PVYV-yə aid əmlak və avadanlıq və istifadə hüququ olan aktivlərin balans dəyərinin onların bazar məlumatına istinadən təyin edilən və əsas vəsaitlərin faktiki vəziyyətinə uyğun olaraq düzəliş edilən satış xərcləri çıxılmaqla ədalətli dəyərindən artıq olduğunu müəyyən etmişdir. Bu səbəbdən də, 31 dekabr 2021-ci il tarixinə istifadə hüququ olan aktivlərlə bağlı 4,594 AZN məbləğində dəyərsizləşmə xərci (31 dekabr 2020: əmlak və avadanlıq və istifadə hüququ olan aktivlərlə bağlı 15,794 AZN) tanınmışdır. Rəhbərlik, Aviaşirkət PVYV üçün bərpa məbləğini müəyyən edərkən satış xərcləri təxminini (hava gəmilərinin bazar dəyərinin 12.5%-i) ən həssas fərziyyə hesab etmişdir. Hava gəmilərinin hesablanmış satış xərclərində 1% dəyişiklik 8,078 AZN məbləğində dəyərsizləşmə və ya PVYV üçün əvvəl tanınmış dəyərsizləşmənin bərpası ilə nəticələnə bilərdi.

## 11. İCARƏLƏR (QRUP İCARƏÇİ KİMİ)

**İstifadə hüququ olan aktivlər (hava gəmisi və mühərriklər)**

| | Cəmi |
|---|---|
| ***İlkin dəyər*** | |
| **1 yanvar 2020-ci il tarixinə** | **457,650** |
| İstifadə hüququ olan aktivlərə dövr ərzində əlavələr | 71 |
| Əmlak və avandanlıqlardan ötürülmə | 39,149 |
| İcarə müddətinin yenidən qiymətləndirilməsi | (12,648) |
| **31 dekabr 2020-ci il tarixinə** | **484,222** |
| İstifadə hüququ olan aktivlərə dövr ərzində əlavələr | 1,343 |
| Əsaslı təmirin tanınmasının dayandırılması | (1,272) |
| **31 dekabr 2021-ci il tarixinə** | **484,293** |
| ***Yığılmış köhnəlmə və dəyərsizləşmə*** | |
| **1 yanvar 2020-ci il tarixinə** | **79,671** |
| İl üzrə xərc | 24,529 |
| Dəyərsizləşmə zərəri | 663 |
| Əmlak və avandanlıqdan otürülmə | 12,365 |
| İcarə müddətinin yenidən qiymətləndirilməsi | (5,474) |
| **31 dekabr 2020-ci il tarixinə** | **111,754** |
| İl üzrə xərc | 23,599 |
| Əsaslı təmirin tanınmasının dayandırılması | (1,272) |
| Dəyərsizləşmə zərəri | 4,594 |
| **31 dekabr 2021-ci il tarixinə** | **138,675** |
| ***Xalis qalıq dəyəri*** | |
| **1 yanvar 2020-ci il tarixinə** | **377,979** |
| **31 dekabr 2020-ci il tarixinə** | **372,468** |
| **31 dekabr 2021-ci il tarixinə** | **345,618** |

Qrup əsasən hava gəmiləri və mühərriklərdən ibarət olan bir neçə aktivi icarəyə götürür. Orta icarə müddəti 10 ildir (2020: 10 il). Qrupun öhdəlikləri icarəyə verənin bu cür icarələr üzrə icarəyə götürülmüş aktivlər üzərində mülkiyyət hüququ ilə təmin edilir. İcarə öhdəliklərinin ödəmə müddətinin təhlili 19 saylı Qeyddə təqdim olunur. İcarə müddəti başa çatdıqdan sonra və heç bir defolt halı baş verməzsə, hava gəmisi və mühərriklərin mülkiyyət hüququ Qrupa ötürüləcək.

2020-ci ildə rəhbərlik COVİD-19 pandemiyası ilə əlaqədar əməliyyatlarının azalması səbəbindən bəzi icarə müqavilələri üzrə uzadılma imkanlarından istifadə etməyi qərara almışdır və istifadə hüququ olan aktivlərinin (xalis balans dəyəri 7,174 AZN) və əlaqəli icarə öhdəliklərinin icarə müddətini yenidən qiymətləndirmişdir.

## 12. VERİLMİŞ UZUNMÜDDƏTLİ AVANSLAR

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Verilmiş uzunmüddətli avanslar | 64,178 | 61,097 |
| Çıxılsın: verilmiş uzunmüddətli avansların dəyərsizləşməsi | (13,236) | (12,643) |
| **Cəmi verilmiş uzunmüddətli avanslar** | **50,942** | **48,454** |

Verilmiş uzunmüddətli avanslar üzrə qalıqlar əsasən hava gəmiləri və təlim avadanlığı ilə bağlı xarici tədarükçülərə verilmiş avanslardan ibarətdir. Rəhbərlik gələcəkdə malların və xidmətlərin geri qaytarılması və ya əldə edilməsi ehtimalı əsasında vəsaitlərin qaytarıla bilməyən hissəsini hər dövrün sonunda qiymətləndirir.

31 dekabr 2021-ci il tarixinə, Qrupun avans ödənişlər etdiyi əsas tərəflərə təyyarələrin alınması və mühərriklərin əsaslı təmiri ilə bağlı, müvafiq olaraq Boeing Company və GE Engine Services LLC daxildir.

31 dekabr 2020-ci il tarixinə, Qrupun avans ödənişləri etdiyi əsas tərəflərə təyyarələrin, simulyator avadanlığının alınması və mühərriklərin əsaslı təmiri ilə bağlı, müvafiq olaraq Boeing Company, Flight Safety International Inc. və GE Engine Services LLC daxildir.

## 13. SAİR UZUNMÜDDƏTLİ AKTİVLƏR

31 dekabr 2021 və 2020-ci il tarixlərinə sair uzunmüddətli aktivlər müvafiq olaraq 23,987 AZN və 29,820 AZN məbləğində əsasən ehtiyat hissələri üzrə qalıqlardan ibarətdir. Bu ehtiyat hissələri yaxşı vəziyyətdədir, dəyərsizləşməmişdir və istifadə olunması planlaşdırılır. Bu səbəbdən də, həmin qalıqlarla bağlı heç bir az hərəkətli təminat ehtiyatı yaradılmamışdır.

## 14. İSTEHLAK OLUNAN EHTİYAT HİSSƏLƏRİ VƏ MAL-MATERİAL EHTİYATLARI

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Ehtiyat hissələri | 36,136 | 18,907 |
| Yanacaq | 5,347 | 4,449 |
| Sair mal-material ehtiyatları | 29 | - |
| Çıxılsın: köhnəlmiş istehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları üçün xalis realizə olunan dəyər ehtiyatı | (10,232) | (3,437) |
| **Cəmi istehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları** | **31,280** | **19,919** |

## 15. TİCARƏT VƏ SAİR DEBİTOR BORCLARI

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Ticarət debitor borcları | 65,963 | 33,620 |
| Əlaqəli tərəflərdən alınacaq məbləğlər | 12,923 | 1,731 |
| **Maliyyə aktivləri** | **78,886** | **35,351** |
| Verilmiş avanslar və gələcək dövrlərin xərcləri | 26,395 | 19,832 |
| Alınacaq ƏDV | 15,946 | 8,791 |
| Əvəzləşdirilən ƏDV | 17,489 | 7,918 |
| **Qeyri-maliyyə aktivləri** | **59,830** | **36,541** |
| **Cəmi ticarət və sair debitor borcları** | **138,716** | **71,892** |

Yerli vergi qanunvericiliyinə əsasən Qrupun yalnız müqavilə üzrə işlər tamamlandıqdan və əlaqəli kreditor borcları ödənildikdən sonra ƏDV qalıqlarını əvəzləşdirmək hüququ vardır, nə zaman ki, artıq əvəzləşdirilən ƏDV alınacaq ƏDV kimi təsnifləşdirilir. Avadanlıq, yanacaq və xidmətlərin satın alınması zamanı yaranan əvəzləşdirilən ƏDV qalıqları onların əvəzləşdirilməsi hüququ olduqda vergi öhdəlikləri ilə əvəzləşdiriləcək.

Qrup yerli vergi qanunvericiliyinə əsasən 31 dekabr 2021-ci il tarixində başa çatan il üçün vergi üzrə kreditor borc balansları ilə 24,596 AZN məbləğində alınacaq ƏDV balansını əvəzləşdirmək hüququnu icra etmişdir (31 dekabr 2020: 15,394 AZN).

Ticarət debitor borcları əsasən hava məkanından edilən uçuşlar üzrə aeronaviqasiya xidmətlərinə görə və beynəlxalq agentliklər tərəfindən satılan biletlərə görə əldə olunan məbləğlərdən ibarətdir. Verilmiş avanslar və gələcək dövrlərə aid xərclər əsasən on iki ay ərzində çatdırılması və istifadə olunması nəzərdə tutulan hava gəmilərinin ehtiyat hissələri üçün qabaqcadan ödənişlərdən və aeronaviqasiya bazasının yenilənməsi üçün xidmət haqlarından ibarətdir.

2021-ci ildə Qrupun əsas müştərilərinə yanacaq təminatı, aeronaviqasiya xidmətləri və hava limanı xidmətləri üçün ASG Business Aviation MMC, aeronaviqasiya xidmətləri üçün Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası ("BHNA") üzvləri, aeronaviqasiya və hava limanı xidmətləri üçün Silk Vey Vest Aviaşirkəti MMC və qrafik üzrə sərnişin daşımaları üçün Faktura və Hesablaşma Planı ("FHP") müəssisələri daxildir.

2021-ci il ərzində tanınan əlaqəli tərəflərdən alınacaq məbləğlərdə və dəyərsizləşmə zərərində əhəmiyyətli artımın səbəbi Qrupun əvvəlki törəmə müəssisəsi olan və 2021-ci ildə ötürülərək uçotdan silinən Naxçıvan Beynəlxalq Hava Limanından alınacaq vəsaitlərin qalığıdır. Bu qalıq əvvəlki illərdə konsolidasiya zamanı silinmişdir, lakin 2021-ci ilin dekabr ayına əlaqəli tərəflərdən alınacaq məbləğ kimi təsnifləşdirilir. Qalıq üzrə tanınan dəyərsizləşmə zərəri və 31 dekabr 2021-ci il tarixinə qalıq (GKZ daxil olmaqla ümumi məbləğ) müvafiq olaraq, 35,363 AZN və 37,050 AZN olmuşdur.

2020-ci il üzrə Qrupun əsas müştərilərinə aeronaviqasiya xidmətləri üçün BHNA üzvləri, qrafik üzrə sərnişin daşımaları üçün FHP müəssisələri və aeronaviqasiya və hava limanı xidmətləri üçün Silk Vey Vest Aviaşirkəti MMC daxildir.

Kredit riskinin qiymətləndirilməsi və idarə edilməsi üçün Qrup tərəfindən istifadə olunan ehtiyat matrisinə əsaslanan ticarət debitor borclarının risk profili aşağıdakı kimidir:

| | Ticarət debitor borcları – vaxtı keçmiş günlər üzrə | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il** | **Vaxtı keçməmiş** | **<30** | **31-90** | **91-180** | **180-360** | **>360** | **Cəmi** |
| | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** |
| Gözlənilən kredit zərəri faizi | 6% | 8% | 9% | 14% | 24% | 100% | 18% |
| Defolt üzrə hesablanmış ümumi balans məbləği | 35,031 | 10,457 | 11,277 | 11,299 | 4,582 | 8,062 | 80,708 |
| Ömürlük gözlənilən kredit zərəri | (2,202) | (799) | (1,009) | (1,584) | (1,089) | (8,062) | (14,745) |
| **Cəmi ticarət debitor borcları** | | | | | | | **65,963** |

| | Ticarət debitor borcları – vaxtı keçmiş günlər üzrə | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il** | **Vaxtı keçməmiş** | **<30** | **31-90** | **91-180** | **180-360** | **>360** | **Cəmi** |
| | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** |
| Gözlənilən kredit zərəri faizi | 2% | 2% | 3% | 45% | 81% | 100% | 26% |
| Defolt üzrə hesablanmış ümumi balans məbləği | 24,509 | 3,309 | 4,346 | 2,393 | 3,621 | 7,238 | 45,416 |
| Ömürlük gözlənilən kredit zərəri | (372) | (51) | (139) | (1,081) | (2,915) | (7,238) | (11,796) |
| **Cəmi ticarət debitor borcları** | | | | | | | **33,620** |

Qrup, COVİD-19 pandemiyası ilə əlaqədar pul vəsaitlərinin toplanmasındakı gecikmələri nəzərə alaraq ticarət debitor borclarında gözlənilən kredit zərəri dərəcələrinə düzəliş etmişdir.

| | 2021 | 2020 |
|---|---|---|
| **İlin əvvəlində qalıq** | **11,796** | **12,417** |
| **Zərər ehtiyatının xalis yenidən ölçülməsi** | **2,949** | **(621)** |
| Bərpa olunan məbləğ | (3,651) | (1,074) |
| Yaranmış yeni ticarət debitor borcları ilə əlaqədar zərər ehtiyatında dəyişiklik, hesablaşma nəticəsində tanınması dayandırılmış borclar çıxılmaqla | 6,600 | 453 |
| **İlin sonuna qalıq** | **14,745** | **11,796** |

| **31 dekabr 2021-ci il** | **Əlaqəli tərəflərdən alınacaq məbləğlər – vaxtı keçmiş günlər üzrə** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **Vaxtı keçməmiş** | **<30** | **31-90** | **91-180** | **180-360** | **>360** | **Cəmi** |
| | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** |
| Gözlənilən kredit zərəri faizi | 6% | 8% | 9% | 14% | 24% | 100% | 78% |
| Defolt üzrə hesablanmış ümumi balans məbləği | 5,995 | 2,908 | 1,136 | 550 | 1,269 | 37,729 | 49,587 |
| Ömürlük gözlənilən kredit zərəri | (380) | (222) | (102) | (77) | (302) | (37,729) | (38,812) |
| **Cəmi əlaqəli tərəflərdən alınacaq məbləğlər** | | | | | | | **10,775** |

| **31 dekabr 2020-ci il** | **Əlaqəli tərəflərdən alınacaq məbləğlər – vaxtı keçmiş günlər üzrə** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **Vaxtı keçməmiş** | **<30** | **31-90** | **91-180** | **180-360** | **>360** | **Cəmi** |
| | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** |
| Gözlənilən kredit zərəri faizi | 1% | 2% | 3% | 45% | 81% | 100% | 68% |
| Defolt üzrə hesablanmış ümumi balans məbləği | 206 | 182 | 583 | 351 | 798 | 1,941 | 4,061 |
| Ömürlük gözlənilən kredit zərəri | (3) | (3) | (19) | (159) | (643) | (1,941) | (2,768) |
| **Cəmi əlaqəli tərəflərdən alınacaq məbləğlər** | | | | | | | **1,293** |

Verilmiş avanslar qeyri-maliyyə xarakterli olduğundan onlar üçün gözlənilən kredit zərəri təhlili aparılmamış və bu səbəbdən yuxarıdakı cədvəllərə daxil edilməmişdir.

Qrupun kredit və valyuta risklərinin təhlili, eləcə də ticarət və sair debitor borcları ilə əlaqədar dəyərsizləşmə zərərlərinin qiymətləndirilməsi 25 saylı Qeyddə açıqlanmışdır.

| | **31 dekabr 2021-ci il** | **31 dekabr 2020-ci il** |
|---|---|---|
| Verilmiş qısamüddətli avanslar | 26,646 | 19,146 |
| Çıxılsın: verilmiş qısamüddətli avanslar üzrə dəyərsizləşmə | (1,136) | (216) |
| **Cəmi verilmiş avanslar** | **25,510** | **18,930** |
| Gələcək dövrlərin xərcləri | 885 | 902 |
| **Cəmi verilmiş qısamüddətli avanslar və gələcək dövrlərin xərcləri** | **26,395** | **19,832** |

## 16. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Bank hesablarındakı vəsaitlər (AZN ilə) | 43,490 | 2,140 |
| Bank hesablarındakı vəsaitlər (ABŞ dolları ilə) | 27,395 | 35,920 |
| Bank hesablarındakı vəsaitlər (AVRO ilə) | 6,138 | 5,147 |
| Bank hesablarındakı vəsaitlər (digər xarici valyutalar ilə) | 1,300 | 1,135 |
| Sair pul vəsaitləri və onların ekvivalentləri | 502 | 384 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **78,825** | **44,726** |

Qrupun xarici valyuta və kredit riski, eləcə də maliyyə aktivləri və öhdəliklərinə dair həssaslıq təhlili 25 saylı Qeyddə açıqlanır.

## 17. SƏHMDAR KAPİTALI

Nizamnaməyə əsasən Qrupun elan edilmiş nizamnamə kapitalı 31 dekabr 2021-ci il tarixinə hər birinin nominal dəyəri 2 AZN olan 411,987,235 səhmdən ibarət olmaqla 823,975 AZN təşkil edir (31 dekabr 2020: nominal dəyəri 2 AZN olan 411,987,235 səhmdən ibarət olmaqla 823,975 AZN).

***Səhmdar yatırımları***

2021-ci il ərzində dövlət tərəfindən Qrupa Milli Aviasiya Akademiyasında quraşdırılmış Embraer 190-E1 təyyarəsinin uçuş simulyatorunun alınması üçün 8,500 AZN məbləğində vəsait ayrılmışdır.

2020-ci il ərzində dövlət tərəfindən Qrupa Naxçıvan Beynəlxalq Hava Limanında uçuş-eniş zolağının yenidən qurulması üçün 1,802 AZN məbləğində və Milli Aviasiya Akademiyasında simulyator binasının tikintisi və transformatorun qurulması üçün 8,446 AZN məbləğində vəsait ayrılmışdır. Bundan əlavə, əvvəllər hökumətə olan 1,900 AZN məbləğində borc il ərzində bağışlanmış və səhmdarların yatırımları kimi tanınmışdır. Bu əməliyyat üzrə 380 AZN məbləğində mənfəət vergisi də həmçinin Qrupun ilk olaraq öz əməliyyatını tanıdığı əlavə ödənilmiş kapital vasitəsilə uçota alınmışdır.

***Törəmə müəssisənin silinməsi***

2021-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti Qrupun strukturunun bir hissəsi kimi Naxçıvan Beynəlxalq Hava Limanının ayrılması və 1 iyul 2021-ci il tarixindən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin tabeliyinə verilməsi haqqında sərəncam qəbul etmişdir. Bu əməliyyat ümumi nəzarətdə olan tərəflər arasında həyata keçdiyi üçün ilkin dəyər ilə uçota daxil edilmişdir. Nəticə etibarilə, silinmə tarixində törəmə müəssisənin xalis aktivlərinin (təxirə salınmış vergi öhdəliyi qalığı daxil olmaqla) ekvivalentində 51,171 AZN məbləğində azalma yığılmış zərərdə tanınmışdır. Törəmə müəssisənin xalis aktivləri əsasən 91,248 AZN məbləğində əmlak və avadanlıq, 5,490 AZN məbləğində cari aktivlər və 45,567 AZN məbləğində öhdəliklərdən (əsasən 36,387 AZN məbləğində Qrupa olan kreditor borclarından təşkil olunmuşdur) ibarət olmuşdur. Törəmə müəssisənin silinməsi ilə bağlı 2021-ci ilin ilk altı ayı ərzində Qrupun dayandırılmış əməliyyatları üzrə zərəri 5,888 AZN (əsasən 5,179 AZN məbləğində əmlak və avadanlığın köhnəlməsi və heyət xərcindən təşkil olunmuşdur) olmuşdur.

## 18. KREDİTLƏR VƏ BORC VƏSAİTLƏRİ

| | Faiz dərəcəsi | 31 dekabr 2021-ci il Məbləğ | 31 dekabr 2020-ci il Məbləğ |
|---|---|---|---|
| ***AZN ilə*** | | | |
| Yerli banklar | Sabit | 44,275 | 44,275 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | Sabit | 624,168 | 624,168 |
| Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | Sabit | - | 4,078 |
| **Cəmi AZN ilə** | | **668,443** | **672,521** |
| ***ABŞ dolları ilə*** | | | |
| Yerli banklar | Sabit | 85,052 | 67,202 |
| Yerli banklar | Üzən | - | 6,311 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | Üzən | 1,077,899 | 1,077,899 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | Sabit | 64,160 | 32,695 |
| **Cəmi ABŞ dolları ilə** | | **1,227,111** | **1,184,107** |
| ***AVRO ilə*** | | | |
| Xarici banklar | Sabit | 30,338 | 35,982 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | Sabit | 6,382 | 3,411 |
| **Cəmi AVRO ilə** | | **36,720** | **39,393** |
| **Hesablanmış faiz** | | **353,698** | **287,770** |
| **Cəmi kreditlər və borc vəsaitləri** | | **2,285,972** | **2,183,791** |
| **Kreditlərin və borc vəsaitlərin uzunmüddətli hissəsi** | | **1,085,079** | **1,277,930** |
| **Kreditlərin və borc vəsaitlərinin qısamüddətli hissəsi** | | **1,200,893** | **905,861** |

31 dekabr 2021-ci il tarixinə AZN, ABŞ dolları və AVRO üçün müddətli kreditlər üzrə qüvvədə olan orta faiz dərəcəsi müvafiq olaraq 5.9%, 3.7% və 1.3% olmuşdur (31 dekabr 2020: müvafiq olaraq 5.6%, 3.5% və 1.2%). 2021-ci il üçün dəyişən dərəcələr 1 aylıq və 3 aylıq ABŞ dolları LIBOR dərəcələri üstəgəl illik 2% və 2.2% əsasında hesablanmışdır və həmçinin dövr üzrə sabit illik faiz dərəcələri 0.75%-9% arasında dəyişir. Kredit və borc müqavilələrində heç bir maliyyə şərtləri yoxdur.

Qrup 2021-ci il ərzində Premium Bankdan (Qrupun əlaqəli tərəfi) mövcud kredit xətləri üzrə cəmi 34,574 AZN məbləğində dörd yeni kredit tranşı əldə etmişdir. 2021-ci il ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Qrup adından kreditlər və icarələr üçün 34,701 AZN ödəmişdir. İl başa çatdıqdan sonra 28 fevral 2022-ci il tarixində Maliyyə Nazirliyi ilə 2022-2027-ci illər ərzində müəyyən edilmiş ödəniş qrafiki ilə 1 yanvar 2022-ci il tarixindən etibarən illik 2% faiz dərəcəsinin tətbiq edilməsi barədə razılıq əldə olunmuşdur.

Kreditlərin və borc vəsaitlərinin qaytarılma müddətləri aşağıdakı cədvəldə əks olunmuşdur:

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Bir ay ərzində | 937,283 | 627,834 |
| Bir aydan bir ilə qədər | 263,610 | 278,027 |
| **Cəmi kreditlərin və borcların qısamüddətli hissəsi** | **1,200,893** | **905,861** |
| Bir ildən beş ilədək ödənilməli | 1,068,976 | 1,008,364 |
| Beş ildən artıq müddətdə ödənilməli | 16,103 | 269,566 |
| **Cəmi kreditlərin və borc vəsaitlərinin uzunmüddətli hissəsi** | **1,085,079** | **1,277,930** |
| **Cəmi kreditlər və borc vəsaitləri** | **2,285,972** | **2,183,791** |

**Maliyyə fəaliyyətlərindən yaranan öhdəliklərin üzləşdirilməsi**

Aşağıdakı cədvəldə pul vəsaitləri ilə bağlı olan və olmayan dəyişikliklər daxil olmaqla Qrupun maliyyə fəaliyyətlərindən yaranan öhdəliklərindəki dəyişikliklər öz əksini tapır. Maliyyə fəaliyyətindən yaranan öhdəliklər Qrupun konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatında onlarla bağlı pul vəsaitlərinin və ya gələcək nağd pul vəsaitlərinin maliyyə fəaliyyətlərindən əldə olunan nağd pul vəsaitləri kimi təsnifləşdirildiyi və ya təsnifləşdiriləcəyi öhdəliklərdir.

| | | Nağd dəyişikliklər | | Qeyri-nağd dəyişikliklər | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1 yanvar 2021-ci il | Maliyyələşmə üzrə nağd daxilolmalar (i) | Qrup tərəfindən ödənişlər | Qrup adından ödənişlər (ii) | Məzənnə fərqi | Sair qeyri-nağd dəyişikliklər (iii) | Sair dəyişikliklər (iv) | 31 dekabr 2021-ci il |
| Bank kreditləri | 35,982 | - | - | (3,308) | (2,736) | - | 400 | 30,338 |
| Əlaqəli tərəflərdən kreditlər | 2,147,809 | 34,574 | (16,724) | (6,311) | (265) | 30,623 | 65,928 | 2,255,634 |
| İcarə öhdəlikləri | 334,158 | - | (22,590) | (31,465) | - | - | 2,699 | 282,802 |
| **Maliyyə fəaliyyətləri üzrə cəmi öhdəliklər** | **2,517,949** | **34,574** | **(39,314)** | **(41,084)** | **(3,001)** | **30,623** | **69,027** | **2,568,774** |

| | | Nağd dəyişikliklər | | Qeyri-nağd dəyişikliklər | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1 yanvar 2020-ci il | Maliyyələşmə üzrə nağd daxilolmalar (i) | Qrup tərəfindən ödənişlər | Qrup adından ödənişlər (ii) | Məzənnə fərqi | Sair qeyri-nağd dəyişikliklər (iii) | Sair dəyişikliklər (iv) | 31 dekabr 2020-ci il |
| Bank kreditləri | 35,539 | - | (108) | (3,250) | 3,113 | - | 688 | 35,982 |
| Əlaqəli tərəflərdən kreditlər | 2,042,662 | 24,406 | (3,477) | (10,010) | 160 | 34,045 | 60,023 | 2,147,809 |
| İcarə öhdəlikləri | 390,699 | - | (24,084) | (32,695) | - | (6,452) | 6,690 | 334,158 |
| **Maliyyə fəaliyyətləri üzrə cəmi öhdəliklər** | **2,468,900** | **24,406** | **(27,669)** | **(45,955)** | **3,273** | **27,593** | **67,401** | **2,517,949** |

(i) Əlaqəli tərəflərdən alınan kreditlər üzrə əldə olunan pul vəsaitləri konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatda borc vəsaitləri üzrə gəlirlərin ümumi məbləğini təşkil edir.

(ii) Qrup adından ödənişlər konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatda "Pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan çıxarılmış nağdsız əməliyyatlar" başlığı altında açıqlanır, (c) və (d).

(iii) 2021-ci ildə sair nağdsız dəyişikliklərə Qrup adından Maliyyə Nazirliyi tərəfindən kreditlər və icarələr üçün ödənilmiş və Maliyyə Nazirliyinə ödəniləcək kredit kimi tanınmış 34,701 AZN məbləğində kredit daxildir. Əlavə olaraq, törəmə şirkətin silinməsi nəticəsində əlaqəli tərəflərdən kreditlər 4,078 AZN məbləğində azalmışdır.

(iv) Sair dəyişikliklərə kreditlər və borc vəsaitləri, o cümlədən icarə öhdəlikləri üzrə faiz hesablamaları və ödənişləri daxildir (xalis dövriyyə).

2020-ci il ilə müqayisədə satılan, lakin istifadə olunmayan biletlər üzrə öhdəliklərin məbləğində dəyişiklik dünya iqtisadiyyatında yeni COVİD-19 koronavirus infeksiyasının təsirinin azalması nəticəsində 2021-ci il ərzində göstərilən xidmətlərin həcminin əhəmiyyətli dərəcədə bərpa edilməsi ilə əlaqədar olmuşdur.

***Sərnişinlər üçün bonus proqramına aid təxirə salınmış gəlir***

Sərnişinlər üçün bonus proqramına aid gəlir Qrupun bonus ballarının əvəzini ödəmək məqsədilə ödənişsiz əsasda və yaxud endirimli xidmətlər göstərməklə öhdəliklərini yerinə yetirdikdə və ya bonus ballarının vaxtı bitdikdə tanınır. Təxirə salınmış gəlir bonus ballarının əvəzinin ehtimal edilən ödənmə müddətləri əsasında qısa və uzun müddətli öhdəliklər kimi təsnifləşdirilir. Qrup yığılmış bonus ballarını alqı-satqı sövdələşməsi çərçivəsində ayrıca müəyyən edilən komponent kimi uçotda tanıyır. Bölünən ödənişlərin dəyəri onların müstəqil satış qiyməti əsasında verilmiş bonuslara tətbiq edilir və öhdəlik (təxirə salınmış gəlir) kimi konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Bir fərdi bonus milinin müstəqil satış qiyməti gələcəkdə Bonus proqramının iştirakçısına təqdim olunması gözlənilən xidmətlərin ədalətli dəyərinin təqribidir.

| | 2021-ci il | 2020-ci il |
|---|---|---|
| **Əvvəlki dövrdən keçirilmiş təxirə salınmış gəlir balansı** | **28,687** | **28,125** |
| İl ərzində yığılmış | 1,881 | 2,983 |
| İl ərzində əvəzi ödənilmiş | (1,499) | (1,611) |
| İl ərzində faktiki son tarix | - | (810) |
| **Növbəti dövrə keçirilmiş təxirə salınmış gəlir balansı** | **29,069** | **28,687** |

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Təxirə salınmış gəlir, qısamüddətli hissə | 3,268 | 1,529 |
| Təxirə salınmış gəlir, uzunmüddətli hissə | 25,801 | 27,158 |
| **Cəmi bonus proqramına aid təxirə salınmış gəlir** | **29,069** | **28,687** |

COVİD pandemiyasına qədərki maliyyə illəri ilə müqayisədə sərnişinlər üçün bonus proqramı üzrə öhdəliklərdəki dəyişiklik COVİD-19 pandemiyası dövründə proqram iştirakçıları tərəfindən toplanan bonus millərin həcmində və bu millərin istifadəsindəki azalmasına görədir. 2020-ci ildə Qrup bonus millərdən son istifadə müddətini 31 dekabr 2021-ci il tarixinədək uzatmışdır. Daha sonra 2021-ci il ərzində millərin son tarixləri 30 iyun 2022-ci il tarixinədək uzadılmışdır. 31 dekabr 2021-ci il tarixinə tanınan təxirə salınmış gəlirin uzunmüddətli hissəsinin bu tarixdən sonra yaxın üç il ərzində gəlir kimi tanınması gözlənilir (maksimum son tarix).

## 21. HÖKUMƏT SUBSİDİYASI

13 dekabr 2021-ci ildə törəmə müəssisə olaraq Füzuli Hava Limanı MMC üzrə nəzarət 100% Qrupa ötürülmüşdür. Bu ötürülmə nəticəsində Qrup 44,500 AZN məbləğində aktivləri və müvafiq hökumət subsidiyası üzrə öhdəliyi konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda tanımışdır (Qeyd 4-ə bax).

## 22. TƏXİRƏ SALINMIŞ MƏNFƏƏT VERGİSİ

Təxirə salınmış mənfəət vergisi maliyyə hesabatı məqsədləri üçün aktiv və öhdəliklərin balans dəyəri ilə mənfəət vergisi məqsədlərində təyin edilən məbləğ arasındakı müvəqqəti fərqin xalis vergi təsirini əks etdirir. Aşağıda göstərilənlər Qrup tərəfindən tanınan əsas təxirə salınmış vergi öhdəlikləri və aktivlər və onlarda cari və ötən dövrlər ərzində baş vermiş hərəkətlərdir.

**Müvəqqəti fərqlərin növlərinə görə təqdim olunan təxirə salınmış vergi aktivləri və (öhdəlikləri):**

| | 1 yanvar 2021-ci il | Törəmə müəssisənin silinməsi | Mənfəət və ya zərər hesablarında tanınmış | 31 dekabr 2021-ci il |
|---|---|---|---|---|
| Əmlak və avadanlıq | (33,675) | 3,069 | (3,283) | (33,889) |
| İstifadə hüququ olan aktivlər | (21,959) | - | (5,636) | (27,595) |
| Qeyri-maddi aktivlər | (170) | - | - | (170) |
| Sair uzunmüddətli aktivlər | - | - | 1,261 | 1,261 |
| Ticarət və sair debitor borcları | 7,223 | - | 4,460 | 11,683 |
| İstehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları | 3,162 | - | (2,479) | 683 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 43 | - | - | 43 |
| Kreditlər və borc vəsaitləri | (348) | - | 348 | - |
| İcarə öhdəlikləri | 1,293 | - | (988) | 305 |
| Ticarət və sair kreditor borcları | 613 | - | 4,098 | 4,711 |
| Qazanılmamış gəlir | (4,624) | - | 5,160 | 536 |
| Təxirə salınmış gəlir | 5,738 | - | 76 | 5,814 |
| Sair qısamüddətli öhdəliklər | (3,493) | 236 | 3,257 | - |
| **Cəmi** | **(46,197)** | **3,305** | **6,274** | **(36,618)** |

| | 1 yanvar 2020-ci il | MHBS 16 üzrə icarə müddətinin yenidən təsnifləşdirilməsi və qiymətləndirilməsinin təsiri | Kapitalda tanınmış | Mənfəət və ya zərər hesablarında tanınmış | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|---|
| Əmlak və avadanlıq | (32,330) | 2,204 | - | (3,549) | (33,675) |
| İstifadə hüququ olan aktivlər | (21,195) | (914) | - | 150 | (21,959) |
| Qeyri-maddi aktivlər | (170) | - | - | - | (170) |
| Ticarət və sair debitor borcları | 4,691 | - | - | 2,532 | 7,223 |
| İstehlak olunan ehtiyat hissələri və mal-material ehtiyatları | 828 | - | - | 2,334 | 3,162 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 43 | - | - | - | 43 |
| Kreditlər və borc vəsaitləri | - | - | (380) | 32 | (348) |
| İcarə öhdəlikləri | 3,708 | (1,290) | - | (1,125) | 1,293 |
| Ticarət və sair kreditor borcları | 3,487 | - | - | (2,874) | 613 |
| Qazanılmamış gəlir | - | - | - | (4,624) | (4,624) |
| Təxirə salınmış gəlir | 5,625 | - | - | 113 | 5,738 |
| Sair qısamüddətli öhdəliklər | (1,047) | - | - | (2,446) | (3,493) |
| **Cəmi** | **(36,360)** | **-** | **(380)** | **(9,457)** | **(46,197)** |

## 23. TİCARƏT VƏ SAİR KREDİTOR BORCLARI

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Ticarət və sair kreditor borcları | 95,769 | 66,301 |
| Heyətlə bağlı kreditor borcları | 13,997 | 11,546 |
| Əlaqəli tərəflərə ödənilməli məbləğlər | 8,917 | 15,374 |
| **Maliyyə öhdəlikləri** | **118,683** | **93,221** |
| Alınmış avanslar | 10,734 | 9,991 |
| Sair vergilər üzrə kreditor borcları | 5,767 | 4,493 |
| Əmlak vergisi | 596 | 50 |
| Mənfəət vergisi üzrə kreditor borcları | 762 | 762 |
| **Qeyri-maliyyə öhdəlikləri** | 17,859 | 15,296 |
| **Cəmi ticarət və sair kreditor borcları** | **136,542** | **108,517** |

Ticarət və sair kreditor borcları tədarükçülərin Qrupa göstərdiyi təmir və texniki qulluq, yerüstü xidmətlər, göyərtədə qidalanma və sair xidmətlərdən ibarətdir.

31 dekabr 2021-ci il tarixinə işçi heyəti ilə bağlı kreditor borcları əsasən əmək haqları üzrə 5,485 AZN məbləğində kreditor borclarından (31 dekabr 2020: 4,986 AZN) və istifadə edilməmiş məzuniyyət günlərinə görə 8,512 AZN (31 dekabr 2020: 6,560 AZN) məbləğində müavinətlərdən ibarətdir.

2020 və 2021-ci illərdə Qrupun əsas tədarükçüləri sırasına SOCAR-ın "Azneft" İB-si (yanacaq), AJ Walter Aviation Ltd. (ehtiyat hissələri), GA Telesis LLC (ehtiyat hissələri), Silk Vey Qrup (təyyarələrə texniki xidmət), ASG Business Aviation Group (yerüstü xidmətlər, göyərtədə qidalanma, təmir və texniki qulluq), Silk Row Travel MMC (satış və marketinq), İpək Yolu Sığorta ASC (sığorta), Azərişıq ASC (elektrik enerjisi) və SITA (rabitə) daxil idi.

Alınmış avanslar Qrup tərəfindən hava gəmilərinə texniki xidmətlərin göstərilməsinə görə əsasən xarici aviaşirkətlər tərəfindən ödənilən avanslardır.

Sair vergilər üzrə kreditor borcları əsasən torpaq, gəlir vergisi, sosial və ödəmə mənbəyində tutulan vergilər üzrə yaranan öhdəliklərdən ibarətdir. ƏDV üzrə debitor borclarla əvəzləşdirdikdən sonra 31 dekabr 2021-ci il tarixinə sair vergilər üzrə kreditor borcları, əsasən, 2,051 AZN məbləğində sosial vergilər və 3,599 AZN məbləğində satış üzrə ƏDV-dən ibarət olmuşdur (Qeyd 15). 31 dekabr 2020-ci il tarixinə sair vergilər üzrə kreditor borclarına əsasən 1,497 AZN məbləğində sosial vergilər, 2,535 AZN satış üzrə ƏDV və 461 AZN məbləğində sair vergilər daxil olmuşdur.

Qrupun ticarət və sair kreditor borcları ilə bağlı valyuta riskləri 25 saylı Qeyddə əks olunmuşdur.

## 24. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

Qrupun sair qısamüddətli öhdəlikləri dövlətə ödənilməli vəsaitlərdən, alınmış depozitlərdən və sığorta üzrə kreditor borclarından ibarətdir. 31 dekabr 2021 və 2020-ci il tarixlərinə sığorta üzrə kreditor borcları müvafiq olaraq 2,630 AZN və 6,769 AZN olmuşdur. Hökumətə ödənilməli vəsaitlər xüsusi məqsədli layihələrlə bağlı hökumətdən alınmış vəsaitlər üzrə öhdəliyi əks etdirir. 31 dekabr 2021-ci il tarixinə hökumətə ödənilməli vəsaitlər 672 AZN olmuşdur (31 dekabr 2020-ci il: 20,206 AZN). Beynəlxalq satış nümayəndələrindən alınmış depozit balansı 31 dekabr 2021 və 2020-ci il tarixlərinə müvafiq olaraq 870 AZN və 751 AZN olmuşdur. Qrup, hesabat dövründən sonrakı 12 ay ərzində müqavilələrin biri üzrə ödəyəcəyi borclar üçün 2020-ci ildə 3,400 AZN məbləğində sair ehtiyat tanımış və rəhbərlik tərəfindən 2021-ci ildə isə reallaşdırılaraq silinmişdir.

## 25. MALİYYƏ ALƏTLƏRİ VƏ RİSKİN İDARƏ EDİLMƏSİ

Qrup adi fəaliyyəti zamanı kredit, likvidlik və bazar risklərinə məruz qalır. Qrup bu növ risklərə qarşı hər hansı hedcinq tədbirləri nəzərdə tutmur.

**Kapitalın idarə olunması**

Qrup fasiləsizlik prinsipi ilə fəaliyyətinə davam etməsini təmin etmək üçün kapitalını idarə edir.

Qrupun kapital strukturu Qrupun xalis borclarından və səhmdarların zərərlərindən (səhmdar kapitalı və yığılmış zərərdən ibarət) ibarətdir.

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə görə Qrup mənfi kapital mövqeyini həmin kapitalın yarandığı ildən sonrakı ildə düzəltməlidir (rəhbərliyin fasiləsizliklə bağlı açıqlamaları üçün 2 saylı qeydə baxın). Bundan başqa, Qrupa qarşı digər kənar icbari kapital tələbləri yoxdur.

**Kredit riski**

Kredit riski kontragentin müqavilə öhdəliklərini yerinə yetirməməsi nəticəsində Qrupun məruz qala biləcəyi maliyyə zərərlərini nəzərdə tutur. Qrup yalnız ödəmə qabiliyyəti olan kontragentlərlə sövdələşmələr aparmaq və müvafiq hallarda kontragentlərin müqavilə öhdəliklərini pozmalarından irəli gələn riskləri azaltmaq üçün bir vasitə kimi kifayət həcmdə girov tələb etmək prinsipini qəbul etmişdir.

Ticarət debitor borcları müxtəlif sənaye sahələri və coğrafi ərazilər üzrə paylanmış çoxlu sayda müştərilərdən ibarətdir. Ticarət debitor borclarının maliyyə vəziyyəti üzrə davamlı kredit qiymətləndirmələri aparılır. Qrupun biletlərinin əksər hissəsi FHP-yə (Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası tərəfindən təşkil olunan hava yolları şirkəti və satış agentləri arasında klirinq sistemi) üzv olan agentlər tərəfindən satılır. FHP agentlərindən alınacaq vəsaitlərin qalığı (GKZ daxil olmaqla ümumi məbləğ) 31 dekabr 2021-ci il tarixinə ticarət debitor borclarının 7%-ni və ya 5,396 AZN təşkil etmişdir (31 dekabr 2020: 9,067 AZN və ya 20%).

Bundan əlavə, Qrupun yerli uçuşlar üçün aviabiletlərinin bir hissəsi Azərbaycanın dənizə çıxışı olmayan eksklavı olan Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvanda yerləşən Naxçıvan Beynəlxalq Hava Limanı (Qrupun əlaqəli tərəfi) tərəfindən hazırlanır. 31 dekabr 2021-ci il tarixinə bu kontragentdən alınacaq qalıqların (GKZ daxil olmaqla ümumi məbləğ) məbləği təxminən 38,812 AZN və ya əlaqəli tərəflərdən alınacaq məbləğlərin 78%-ni təşkil etmişdir (31 dekabr 2020: yoxdur – Qeyd 15-ə bax).

Sərnişin, yük daşımaları və ölkə üzərindən uçuş xidmətlərinin satışı əsasən Beynəlxalq Hava Daşımaları Assosiasiyası (BHNA) tərəfindən təsdiqlənmiş satış agentləri və onlayn satışlar vasitəsilə həyata keçirilir. Bütün BHNA agentləri akkreditasiya olunmaq üçün fəaliyyət göstərdiyi ölkəyə tətbiq edilən minimum maliyyə meyarlarına cavab verməlidir. BHNA Agentlik Proqramı vasitəsilə maliyyə meyarlarının yerinə yetirilməsinə davamlı nəzarəti həyata keçirir. BHNA agentlərindən alınacaq vəsaitlərin qalığı (GKZ daxil olmaqla ümumi məbləğ) 31 dekabr 2021-ci il tarixinə ticarət debitor borclarının 16%-ni və ya 12,534 AZN təşkil etmişdir (31 dekabr 2020: 11,056 AZN və ya 24%). Belə satış agentləri ilə bağlı kredit riskləri diversifikasiya (müxtəliflik) səbəbindən nisbətən daha azdır.

Qrup, Heydər Əliyev Hava Limanında yerləşən və beynəlxalq yük daşımalarını həyata keçirən Silk Vey Vest Aviaşirkəti MMC-ni aeronaviqasiya və hava limanı xidmətləri ilə təmin edir. 31 dekabr 2021-ci il tarixinə bu kontragentdən alınacaq vəsaitlərin qalığı (GKZ daxil olmaqla ümumi məbləğ) təxminən 11,665 AZN və ya ticarət debitor borclarının 14%-ni təşkil etmişdir (31 dekabr 2020: 16,511 AZN və ya 36%).

Qrup həmçinin Heydər Əliyev Hava Limanında yerləşən və beynəlxalq çarter uçuşlarını həyata keçirən ASG Business Aviation MMC-ni aeronaviqasiya, yanacaq təminatı və hava limanı xidmətləri ilə təmin edir. 31 dekabr 2021-ci il tarixinə bu kontragentdən alınacaq vəsaitlərin qalığı (GKZ daxil olmaqla ümumi məbləğ) təxminən 32,900 AZN və ya ticarət debitor borclarının 41%-ni təşkil etmişdir (31 dekabr 2020: 370 AZN və ya 1%).

2021-ci ildən başlayaraq Qrup, Silk Vey Aviaşirkəti MMC, Silk Vey Vest Aviaşirkəti MMC, ASG Business Aviation MMC və ASG Helicopter Services MMC ilə olan qalıqları əvvəlki hesabat dövrlərində olduğu kimi xalis əsasda deyil, ümumi əsasda uçotda tanımağa başlamışdır. Bu qərar Qrupun hazırkı maliyyə aktivləri və öhdəliklərinin gələcəkdə xalis əsasda ödənilməsi niyyətinin olmaması səbəbilə qəbul edilmişdir.

Qrup davamlı olaraq FHP, BHNA, Silk Vey Vest Aviaşirkəti və ASG Business Aviation MMC üzrə kredit risklərinin monitorinqini aparır. Rəhbərliyin fikrincə, Qrupun FHP, BHNA və/və ya Silk Vey Vest Aviaşirkəti ilə uzunmüddətli və sabit işgüzar münasibətləri, eləcə də sağlam ödəniş tarixçəsi olduğundan onun qeyd edilən kontragentlərlə ilə bağlı mühüm kredit riskləri yoxdur.

31 dekabr 2021-ci il tarixinə əsasən iki yerli bankda saxlanılan nağd vəsaitlər və bank qalıqları 69,152 AZN, 31 dekabr 2020-ci il tarixinə bir yerli bankda nağd vəsaitlər və bank qalıqları 22,987 AZN olmuşdur.

***Kredit riskinə məruzqalma***

Pul vəsaitləri və onların ekvivalentləri istisna olmaqla maliyyə aktivlərinin balans dəyəri maksimum kredit riskini əks etdirir, çünki pul vəsaitləri və onların ekvivalentləri üzrə kredit riskinə məruzqalma kassadakı kiçik məbləğlər həcmində azalır. Hesabat tarixinə maksimum kredit riski aşağıdakı kimi olmuşdur:

| Balans məbləği | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Əlaqəli tərəflərdən alınacaq məbləğlər | 49,587 | 4,061 |
| Ticarət debitor borcları | 80,708 | 45,416 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 78,825 | 44,726 |
| **Cəmi** | **209,120** | **94,203** |

**Bazar riski**

Qrupun fəaliyyətləri onu əsasən xarici məzənnələrdə və faiz dərəcələrində baş verən dəyişikliklərlə bağlı olan maliyyə risklərinə məruz qoyur (aşağıda qeyd olunmuşdur).

***Faiz dərəcəsi riski***

Qrup bazarda üstünlük təşkil edən faiz dərəcələrində dəyişikliklərin öz maliyyə nəticələri və nağd vəsaitlərinin hərəkətinə təsiri ilə bağlı riskə məruz qalır. Faiz dərəcəsinin dəyişməsi əsasən icarə öhdəliklərinə, kreditlərə və borc vəsaitlərinin məbləğinə onlar üzrə pul vəsaitlərinin hərəkətini dəyişməklə təsir edir. İcarə öhdəlikləri də daxil olmaqla yeni borc vəsaitləri alan zaman rəhbərlik Qrup üçün hansı faiz dərəcəsinin (sabit və yaxud üzən) borcun bütün qaytarılma müddətində daha əlverişli olacağı barədə öz mülahizəsi əsasında qərar verir

***Üzən faiz dərəcəli maliyyə alətləri üçün pul vəsaitlərinin həssaslıq təhlili***

Üzən faiz dərəcələrinin artması aşağıda qeyd edildiyi kimi 31 dekabr 2021 və 30 dekabr 2020-ci il tarixlərinə mənfəət və ya zərər və kapitalı aşağıda göstərilmiş məbləğlərdə azalda bilərdi. Bu təhlil

hesabat dövrünün sonuna baş verməsi Qrup tərəfindən kifayət qədər mümkün hesab edilən faiz dərəcələrinin dəyişkənliyinə əsaslanır.

Təhlillərdə bütün digər dəyişən göstəricilərin, xüsusilə də valyuta məzənnələrinin sabit qalması ehtimal edilir.

| | Mənfəət və ya (zərər) / Kapital | |
|---|---|---|
| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
| ABŞ dolları ilə 3 aylıq LIBOR + 0.2% artım (2020: + 0.2% artım) | (2,156) | (1,774) |
| ABŞ dolları ilə 1 aylıq LIBOR + 0.1% artım (2020: + 0.1% artım) | - | (6) |
| **Pul vəsaitlərinin hərəkətinin həssaslığı** | **(2,156)** | **(1,780)** |

Üzən faiz dərəcələrinin azalması mənfəət və ya zərər və kapitalı eynilə yuxarıdakı cədvəldə göstərilmiş məbləğlərdə artıra bilərdi.

***Xarici valyuta riski***

Qrup manatdan başqa digər valyutada ifadə olunmuş gəlirlər, satınalmalar, borc vəsaitləri və icarələr ilə əlaqədar valyuta risklərinə məruz qalır. Bu əməliyyatlar əsasən AVRO və ABŞ dolları ilə aparılmışdır. Qrup müntəzəm qaydada valyuta məzənnələrində dəyişkənlikləri təhlil edir.

***Xarici valyuta ilə bağlı həssaslıq təhlili***

Qrup əsasən AZN-in ABŞ dollarına və AVRO-ya qarşı mübadilə məzənnəsində dəyişikliklərlə bağlı risklərə məruz qalır.

Qrupun xarici valyuta ilə ifadə olunan monetar aktivlərinin və öhdəliklərinin hesabat tarixinə olan balans dəyəri aşağıda təsvir edilmişdir. Bu məlumat digər valyutalarda ifadə olunmuş aktivlər və öhdəliklər olmadan təqdim edilir, çünki onlar Qrupun konsolidə edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərmir. Əlaqəli tərəflərə ödəniləcək və yaxud əlaqəli tərəflərdən alınacaq məbləğlər əlaqəli tərəflərlə aparılan əməliyyatlarla əlaqədar alınmış və yaxud verilmiş avans məbləğlərini əhatə etmir, çünki belə maddələr monetar hesab olunmur.

| 31 dekabr 2021-ci il | AZN | ABŞD | AVRO | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| Ticarət debitor borcları | 35,736 | 29,144 | 593 | 490 | 65,963 |
| Əlaqəli tərəflərdən alınacaq məbləğlər | 12,923 | - | - | - | 12,923 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 43,992 | 27,395 | 6,138 | 1,300 | 78,825 |
| **Cəmi maliyyə aktivləri** | **92,651** | **56,539** | **6,731** | **1,790** | **157,711** |
| Ticarət və sair kreditor borcları | 78,058 | 4,730 | 11,731 | 1,250 | 95,769 |
| Əlaqəli tərəflərə ödənilməli məbləğlər | 8,883 | 14 | 20 | - | 8,917 |
| Heyətlə bağlı kreditor borcları | 13,997 | - | - | - | 13,997 |
| Kreditlər və borc vəsaitləri | 840,756 | 1,408,424 | 36,792 | - | 2,285,972 |
| İcarə öhdəlikləri | - | 282,802 | - | - | 282,802 |
| **Cəmi maliyyə öhdəlikləri** | **941,694** | **1,695,970** | **48,543** | **1,250** | **2,687,457** |
| **Açıq mövqe** | | **(1,639,431)** | **(41,812)** | **540** | **(1,680,703)** |

| 31 dekabr 2020-ci il | AZN | ABŞD | AVRO | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| Ticarət debitor borcları | 21,220 | 7,962 | 866 | 3,572 | 33,620 |
| Əlaqəli tərəflərdən alınacaq məbləğlər | 1,731 | - | - | - | 1,731 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,524 | 35,920 | 5,147 | 1,135 | 44,726 |
| **Cəmi maliyyə aktivləri** | **25,475** | **43,882** | **6,013** | **4,707** | **80,077** |
| Ticarət və sair kreditor borcları | 61,059 | 2,835 | 2,018 | 389 | 66,301 |
| Əlaqəli tərəflərə ödənilməli məbləğlər | 15,374 | - | - | - | 15,374 |
| Heyətlə bağlı kreditor borcları | 11,546 | - | - | - | 11,546 |
| Kreditlər və borc vəsaitləri | 811,840 | 1,332,558 | 39,393 | - | 2,183,791 |
| İcarə öhdəlikləri | - | 334,158 | - | - | 334,158 |
| **Cəmi maliyyə öhdəlikləri** | **899,819** | **1,669,551** | **41,411** | **389** | **2,611,170** |
| **Açıq mövqe** | | **(1,625,669)** | **(35,398)** | **4,318** | **(1,656,749)** |

### *Həssaslıq təhlili*

Manatın məzənnəsinin yuxarıda qeyd edilmiş valyutalara qarşı azalması, 31 dekabr 2021 və 31 dekabr 2020-ci il tarixlərinə mənfəət və ya zərər və kapitalı aşağıda göstərilmiş məbləğdə azalda bilərdi. Bu təhlil hesabat dövrünün sonunda baş verməsi Qrup tərəfindən kifayət qədər mümkün hesab edilən xarici valyuta məzənnələrində dəyişkənliyə əsaslanır. Təhlillərdə bütün digər dəyişən göstəricilərin, xüsusilə də faiz dərəcələrinin sabit qalması ehtimal edilir.

| 31 dekabr 2021-ci il | ABŞD | AVRO | Digər | Cəmi |
|---|---|---|---|---|
| AZN məzənnəsinin 10% azalması | (163,943) | (4,181) | 54 | **(168,070)** |

| 31 dekabr 2020-ci il | ABŞD | AVRO | Digər | Cəmi |
|---|---|---|---|---|
| AZN məzənnəsinin 10% azalması | (162,567) | (3,540) | 432 | **(165,675)** |

AZN məzənnəsinin yuxarıda qeyd edilmiş valyutalara qarşı möhkəmlənməsi bütün digər dəyişənlərin sabit qalması şərtilə yuxarıda göstərilən valyutalara yuxarıdakı məbləğlərlə eyni, lakin əks təsir göstərə bilər.

### Likvidlik riski

Likvidlik riski Qrupun bütün öhdəliklərini vaxtında yerinə yetirə bilməməsi və gələcək tələbləri ilə bağlı ehtiyaclarını maliyyələşdirə bilməməsi ilə bağlı riskdir.

Qrupda likvidliyinin idarə edilməsi baş rəhbərlik tərəfindən həyata keçirilir və aşağıdakı tədbirlərdən ibarətdir:

- Qrup, öhdəliklərini vaxtında yerinə yetirməsi istiqamətində kifayət edəcək likvidliyin təmin edilməsi üçün gələcək pul vəsaitlərinin gündəlik monitorinqini aparır. Buna zərurət yarandıqca pul vəsaitləri fondlarının artırılması aiddir;
- Gözlənilən pul vəsaitlərinin hərəkətini nəzərə alaraq, Qrupun likvidliyinin dəyişkən proqnozlarını aparmaq;
- Borcun maliyyələşdirilməsi planlarını işləyib hazırlamaq;
- Ehtiyat krediti xətti daxil olmaqla, müxtəlif kredit xətlərini dəstəkləmək.

Likvidlik mənbələri coğrafi ərazi, tədarükçülər, məhsul və müddət üzrə müxtəlifliyi saxlamaq üçün rəhbərlik tərəfindən mütəmadi olaraq nəzərdən keçirilir.

Qrupun rəhbərliyi, Qrupun Azərbaycan Respublikası iqtisadiyyatındakı strateji əhəmiyyətini nəzərə alaraq ölkəyə, ölkədən kənara və ölkə daxilində edilən yerli və beynəlxalq uçuşların fasiləsizliyini təmin etmək məqsədilə Azərbaycan Respublikası dövləti tərəfindən Qrupun fəaliyyətinə dəstəyin göstəriləcəyinə inanır. Rəhbərlik Qrupun baş dövlət hava limanı və ölkədə hava nəqliyyatı xidmətlərinin əsas təminatçısı kimi əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikası Hökumətindən lazımi maliyyə dəstəyini alacağını və bununla əməliyyatlarını davam etdirə biləcəyini düşünür.

Aşağıdakı cədvəldə Qrupun qeyri-derivativ maliyyə öhdəliklərinin müqavilə üzrə qalan ödəmə müddətlərinin təfərrüatları açıqlanır. Cədvəl Qrupdan ödənişin tələb oluna biləcəyi ən erkən tarixə əsaslanmaqla maliyyə öhdəlikləri üzrə diskontlaşdırılmamış pul daxilolmaları əsasında hazırlanmışdır.

| | 31 dekabr 2021-ci il | | | |
|---|---|---|---|---|
| | 1 il ərzində | 1 ildən 5 ilədək | 5 ildən artıq | Cəmi |
| İcarə öhdəlikləri | 60,406 | 240,572 | 13,348 | 314,326 |
| Bank kreditləri | 3,200 | 12,439 | 16,698 | 32,337 |
| Əlaqəli tərəflərdən kreditlər | 1,231,825 | 1,145,916 | - | 2,377,741 |
| Ticarət və sair kreditor borcları | 95,769 | - | - | 95,769 |
| Əlaqəli tərəflərə ödənilməli məbləğlər | 8,917 | - | - | 8,917 |
| İşçi heyəti ilə bağlı kreditor borcları | 13,997 | - | - | 13,997 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,414,114** | **1,398,927** | **30,046** | **2,843,087** |

| | 31 dekabr 2020-ci il | | | |
|---|---|---|---|---|
| | 1 il ərzində | 1 ildən 5 ilədək | 5 ildən artıq | Cəmi |
| İcarə öhdəlikləri | 72,689 | 243,866 | 70,259 | 386,814 |
| Bank kreditləri | 3,509 | 13,646 | 21,420 | 38,575 |
| Əlaqəli tərəflərdən kreditlər | 959,579 | 1,095,424 | 253,035 | 2,308,038 |
| Ticarət və sair kreditor borcları | 66,301 | - | - | 66,301 |
| Əlaqəli tərəflərə ödənilməli məbləğlər | 15,374 | - | - | 15,374 |
| İşçi heyəti ilə bağlı kreditor borcları | 11,546 | - | - | 11,546 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,128,998** | **1,352,936** | **344,714** | **2,826,648** |

## Ədalətli dəyər və balans dəyəri

Qrup maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək və açıqlamaq üçün 3 saylı Qeyddə qeyd olunan iyerarxiyadan istifadə edir.

Rəhbərlik hesab edir ki, 31 dekabr 2021-ci il tarixinə ədalətli dəyəri balans dəyərindən 57,571 AZN (31 dekabr 2020: 163,514 AZN) az olan uzunmüddətli kreditlər və borc vəsaitləri istisna olmaqla, Qrupun yuxarıda qeyd olunan iyerarxiyanın 2-ci Səviyyəsində təsnifləşdirilən maliyyə aktivləri və öhdəliklərinin (pul vəsaitləri və onların ekvivalentləri, ticarət debitor borcları, ticarət kreditor borcları və s.) ödəmə müddətləri nisbətən qısa olduğundan və faiz dərəcələri bazar faiz dərəcələrini əks etdirdiyindən onların balans dəyəri ədalətli dəyərinə yaxındır. Maliyyə alətlərinin ehtimal olunan ədalətli dəyəri Qrup tərəfindən mövcud bazar məlumatlarından və uyğun qiymətləndirmə metodologiyalarından istifadə etməklə müəyyən edilmişdir. Buna baxmayaraq, ehtimal olunan ədalətli dəyəri müəyyən etmək məqsədilə bazar məlumatlarını şərh etmək üçün mülahizələrin irəli sürülməsi vacibdir. Rəhbərlik maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün bütün mövcud bazar məlumatlarından istifadə etmişdir.

## 26. ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ TƏƏHHÜDLƏR

### İcarə öhdəlikləri

31 dekabr 2021-ci il tarixinə qısamüddətli və aşağı dəyərli icarə öhdəliklərinə əsasən 1,467 AZN məbləğində mühərrik, təyyarə ehtiyat hissələri və əmlak icarəsi müqavilələri daxildir (31 dekabr 2020: 3,433 AZN). Qrupun bütün müqavilələrini yeniləmək ehtimalını nəzərə alaraq, əməliyyat icarəsi ilə bağlı bütün müqavilələrdə bazar araşdırmasına dair şərtlər nəzərdə tutulmuşdur. Qrup icarə müddəti bitdikdə icarədə olan aktivi almaq hüququna malik deyildir.

İcarə müqavilələrinə sabit və dəyişən icarə ödənişləri aiddir ki, belə ödənişlər də uçuş saatlarına və dövrünə görə dəyişir.

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Sabit ödənişlər | 1,121 | 2,938 |
| Dəyişən ödənişlər | 346 | 1,388 |
| **Cəmi ödənişlər** | **1,467** | **4,326** |

Sabit və dəyişən icarə ödənişləri əsasən ABŞ dolları ilə aparılır.

### Kapital qoyuluşu öhdəlikləri

Qrup Boeing şirkəti ilə dörd Boeing 787-8 və səkkiz Boeing 737-8 təyyarəsinin alınmasını razılaşdırmışdır. Qrup razılaşdırılmış ödəniş cədvəllərinə uyğun olaraq çatdırılmadan əvvəl ödənişlər etməyi öhdəsinə götürür. Əldə edilmiş son razılaşmalara görə bütün təyyarələr üzrə çatdırılma və gözlənilən çatdırılma öncəsi ödənişlər 2024 və 2025-ci illərə təxirə salınmışdır.

Qrupun qeyd olunan təchizatçı ilə müqavilə şərtləri ona təyyarənin alış qiymətini açıqlamağa icazə vermir.

Digər kapital öhdəliklərinə 31 dekabr 2021-ci il tarixinə ümumi məbləği 52,593 AZN (31 dekabr 2020-ci il: 18,130 AZN) olan simulyator avadanlığının, Hava Məkanının Səmərəliliyi Mərkəzinin, ixtisaslaşdırılmış avadanlıq və proqram təminatının, avtomatlaşdırılmış rabitə və arxiv sistemlərinin alınması və tikintisi üçün müqavilələr daxildir.

İyul 2022-ci il ərzində Qrup və Boeing arasında 2025-ci ildən 2030-cu ilədək planlaşdırılan əlavə dörd yeni müasir Boeing 787-8 Dreamliner təyyarəsinin tədarükü ilə bağlı Anlaşma Memorandumu imzalandı.

### Vergi öhdəlikləri

Azərbaycan Respublikasında vergi sistemi inkişaf etməyə davam edir və qanunvericilik bazasında davamlı dəyişikliklərlə səciyyələnir. Normativ sənədlərə şərhlər və məhkəmə qərarları bəzən bir-birinə əks xarakter daşıyır və vergi orqanları tərəfindən müxtəlif yöndə şərh edilə bilər. Vergilərin hesablanmasının düzgünlüyü, yüksək məbləğdə cərimələr, penyalar və faiz cərimələri tətbiq etmək səlahiyyətləri olan bir sıra vergi orqanları tərəfindən yoxlanılır və araşdırılır. Vergi ili vergi orqanları tərəfindən sonrakı 3 təqvim ili ərzində yoxlanıla bilər, lakin bəzi hallarda vergi ili daha uzun müddətə açıq qala bilər. Azərbaycan Respublikasındakı son hadisələr vergi orqanlarının vergi qanunvericiliyinin şərh edilməsi və tətbiqi zamanı daha sərt mövqe tutduqlarını göstərir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycanda vergitutmanın ümumi prinsiplərini, vergi məbləğlərinin təyin olunması, ödənilməsi və yığılması qaydalarını, eləcə də vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və məsuliyyətlərini müəyyən edir. Vergi Məcəlləsində hava nəqliyyatı

xidmətlərini tənzimləyən müddəalar nəzərdə tutulmayıb. Ödəmə mənbəyində vergi və əlavə dəyər vergisi məqsədləri üçün belə xidmətlər beynəlxalq daşımalar kateqoriyasında əks olunur, mənfəət vergisi məqsədləri üçün isə ümumi xidmətlər göstərilir. Bu xidmət kateqoriyaları ilə bağlı bütün bəndlər ümumi xarakter daşıyır və şərh olunmalıdır. Bu səbəbdən hava nəqliyyatı ilə yük daşıma xidmətlərinin şərhi qeyri-müəyyənlik və mühakimələrlə bağlıdır.

Bu hallar, Azərbaycan Respublikasında başqa ölkələrlə müqayisədə daha ciddi vergi riskləri yarada bilər. Rəhbərlik hesab edir ki, o, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə, normativ sənədlərə, rəsmi şərhlərə və məhkəmə qərarlarına əsaslanmaqla Qrupun vergi öhdəliklərini kifayət dərəcədə düzgün müəyyən etmişdir. Lakin müvafiq orqanların vergi qanunvericiliyinə şərhləri fərqli ola bilər və həmin orqanlar öz şərhlərini məcburi tətbiq etdiyi təqdirdə, onların konsolidə edilmiş maliyyə hesabatlarına mühüm təsiri ola bilər.

Bu konsolidə edilmiş maliyyə hesabatlarının buraxıldığı tarixə 2018-2020-ci vergi dövrlərini əhatə edən vergi yoxlaması aparılmışdır. Bu vergi yoxlaması nəticəsində 523 AZN məbləğində ödənilməli olan vergi cəriməsi konsolidə edilmiş maliyyə hesabatlarında tanınmışdır.

**Əməliyyat mühiti**

Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrin bazar mühiti inkişaf etmiş ölkələrlə müqayisədə iqtisadi, siyasi və sosial, hüquqi və qanunvericiliklə əlaqəli risklər daxil olmaqla müxtəlif risklərə daha çox məruz qalır. Azərbaycanda biznes fəaliyyətinə təsir edən qanun və qaydalar sürətlə dəyişməkdədir, vergi qanunvericiliyi və normativ baza müxtəlif formalarda şərh edilməkdədir. Azərbaycan iqtisadiyyatının gələcək sabitliyinə dövlətin həyata keçirdiyi müvafiq islahatlar və dəyişikliklər, eləcə də iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyi güclü təsir göstərir.

Azərbaycan böyük həcmdə neft və qaz istehsal və ixrac etdiyi üçün iqtisadiyyatı dünya bazarındakı neft və qazın qiymətinin dəyişməsinə xüsusilə həssasdır. Neft qiymətləri, bu konsolidə edilmiş maliyyə hesabatlarının dərc edildiyi tarixə qədər 2020-ci ilin mart ayında 40%-dan çox düşməsindən sonra xeyli dərəcədə bərpa olunsa da, manatın əsas valyutalar qarşısında zəifləməsi riski qalmaqdadır.

İl başa çatdıqdan sonra, 2022-ci ilin fevral ayında Rusiya Federasiyası ilə Ukrayna arasındakı münaqişə nəticəsində qərb ölkələrinin bir çoxu tərəfindən Rusiya Federasiyasına qarşı bir sıra sanksiyalar elan edildi. Bu sanksiyalar Rusiya Federasiyasının iqtisadiyyatına mənfi təsir göstərməyə yönəlmişdir. Rusiya ilə digər MDB ölkələri arasında qarşılıqlı asılılıq mövcud olduğu üçün bu hadisələr regional müəssisələrin beynəlxalq kapital və ixrac bazarlarına çıxışını azalda, Rusiya rublunu və digər MDB üzrə regional valyutaları zəiflədə, kapital bazarlarını tənəzzülə məruz qoya və digər mənfi iqtisadi nəticələrə gətirib çıxara bilər.

Qrupun rəhbərliyi bununla əlaqəli hadisələri nəzarətdə saxlayır və yaxın gələcəkdə Qrupun fəaliyyətinin dayanıqlılığını və inkişafını təmin etmək üçün zəruri olan tədbirlər görür. Qrupun gələcək fəaliyyətinə və maliyyə nəticələrinə gələcək iqtisadi və siyasi hadisələrin təsiri əhəmiyyətli ola bilər.

## 27. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Tərəflər bir qayda olaraq, birgə nəzarət altında olduqları zaman, yaxud əgər bir tərəf digər tərəfə nəzarət etmək imkanına; və yaxud maliyyə və fəaliyyət ilə bağlı qərarlarına təsir göstərmək və ya digər tərəfə birgə nəzarət etmək imkanına malikdirsə əlaqəli tərəflər hesab edilir. Hər bir əlaqəli

tərəflə bütün mümkün münasibətlər nəzərdən keçirilən zaman onların yalnız hüquqi forması deyil, həm də iqtisadi mahiyyəti də nəzərə alınır.

Əlaqəli tərəflər Qrupun səhmdarlarından və həmin səhmdarların (ayrılıqda və yaxud birlikdə) nəzarət hüququ verən səhmlərə sahib olduğu digər şirkətlərdən ibarətdir. Azərbaycan Hökuməti Qrupun 100% səhm payına sahibdir. Qrupun Azərbaycan Respublikası Hökuməti ilə və digər təşkilatlarla əhəmiyyətli sövdələşmələri, (Azərbaycan Respublikası Hökuməti tərəfindən nəzarət edilən, birgə nəzarət edilən və yaxud Azərbaycan Respublikası Hökumətinin təsirinə məruz qalan) əsasən alınmış kreditləri və gömrük xərclərini əhatə edir.

Qrupun əsas rəhbər heyətinin əmək haqqı 31 dekabr 2021-ci il tarixində başa çatan il üçün işçilərin qısamüddətli mükafatları formasında 286 AZN (31 dekabr 2020: 284 AZN) təşkil etmişdir.

İl ərzində Qrup əlaqəli tərəflərlə aşağıdakı ticarət sövdələşmələrini bağlamışdır:

| | | **31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə** | |
|---|---|---|---|
| | **Qeydlər** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Kateqoriya üzrə cəmi** |
| Daşımalar üzrə gəlirlər və sair gəlirlər | 5 | | 491,750 |
| *- ümumi nəzarətdə olan müəssisələr* | | *9,633* | |
| Əməliyyat xərcləri (yanacaq xərci, sığorta xərci və GKZ daxil olmaqla) | 6 | | 576,633 |
| *- ümumi nəzarətdə olan müəssisələr* | | *172,937* | |
| Maliyyə xərcləri | 7 | | 86,824 |
| *- ümumi nəzarətdə olan müəssisələr və digər əlaqəli tərəflər* | | *75,283* | |

| | | **31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə** | |
|---|---|---|---|
| | **Qeydlər** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Kateqoriya üzrə cəmi** |
| Daşımalar üzrə gəlirlər və sair gəlirlər | 5 | | 335,236 |
| *- ümumi nəzarətdə olan müəssisələr* | | *2,724* | |
| Əməliyyat xərcləri (yanacaq xərci, sığorta xərci və GKZ daxil olmaqla) | 6 | | 540,149 |
| *- ümumi nəzarətdə olan müəssisələr* | | *59,593* | |
| Maliyyə xərcləri | 7 | | 83,966 |
| *- ümumi nəzarətdə olan müəssisələr və digər əlaqəli tərəflər* | | *69,017* | |

Hesabat dövrünün sonuna hesablaşmalar üzrə qalıqlar aşağıdakı kimidir:

| | | **31 dekabr 2021-ci il** | | **31 dekabr 2020-ci il** | |
|---|---|---|---|---|---|
| | **Qeyd** | **Əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar** | **Kateqoriya üzrə cəmi** | **Əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar** | **Kateqoriya üzrə cəmi** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 16 | | 78,825 | | 44,726 |
| *- ümumi nəzarətdə olan müəssisələr* | | *69,168* | | *25,439* | |
| Ticarət və sair debitor borcları | 15 | | 138,716 | | 71,892 |
| *- ümumi nəzarətdə olan müəssisələr* | | *12,923* | | *1,731* | |
| Ticarət və sair kreditor borcları | 23 | | 136,542 | | 108,517 |
| *- ümumi nəzarətdə olan müəssisələr* | | *8,917* | | *15,374* | |
| Kreditlər və borc vəsaitləri | 18 | | 2,285,972 | | 2,183,791 |
| *- səhmdarlar və digər əlaqəli tərəflər* | | *2,255,634* | | *2,147,809* | |
| Sair qısamüddətli öhdəliklər | 24 | | 5,679 | | 31,507 |
| *- ümumi nəzarətdə olan müəssisələr və digər əlaqəli tərəflər* | | *3,302* | | *26,975* | |